29/30 (1285) 27 iyul - 9 avqust 2023-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymətı razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇİNİN "CHINA MEDIA GROUP" MEDİA KORPORASİYASINA MÜSAHİBƏ VERİB

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Çinin "China Media Group" media korporasiyasına müsahibə verib. Dövlətimizin başçısının müsahibəsi iyulun 22-də "China Global Television Network" televiziya kanalında yayımlanıb. Müsahibəni ixtisarla diqqətinizə çatdırırıq.*

**Müxbir:** *Biz yalnız üç gündür Bakıdayıq. Ölkənizin və şəhərin nə dərəcədə müasir olması bizdə dərin təəssürat yaratdı və getdiyimiz hər yerdə bir Azərbaycan elementi var.*

**Prezident İlham Əliyev:** Düzdür. İlk öncə, Azərbaycana xoş gəlmisiniz. Gəldiyinizə və ölkəmizə diqqət yetirdiyinizə görə sağ olun. Çox şadam ki, siz Azərbaycanda bir neçə gün olacaqsınız və bu, ölkəmizi və xalqımızı daha yaxından tanımaq üçün yaxşı fürsət olacaqdır. Tamamilə haqlısınız ki, biz şəhərlərimizin əsl orijinallığını, nailiyyətlərini qoruyub saxlayırıq. Eyni zamanda, biz ölkəmizi müasirləşdiririk. Bakıda gördükləriniz müasirliklə ənənələrin qovuşmasıdır və hesab edirəm ki, onlar bir-birinə qarşı çıxmır, bir-birinə zidd deyil. Bu, məqsədyönlü şəkildə edilib, çünki Bakı kimi tarixi şəhərdə ilk məqsəd tariximizi və memarlıq abidələrini qorumaqdır. Eyni zamanda, şəhərə inkişaf etmək imkanı verilməlidir. Bakıda hər iki məqamı duya bilərsiniz. Zənnimcə, bu, həqiqətən mühüm nailiyyətdir və bunu qeyd etdiyinizə görə sağ olun.

**Müxbir:** *Cənab Prezident, müsahibəmizin əvvəlində bildirmək istəyirəm ki, bu il mərhum atanız Ümummilli Lider Heydər Əliyevin 100 illiyi qeyd olunur. O, təkcə Ulu Öndər və müasir Azərbaycanın qurucusu deyil, Çin-Azərbaycan dostluğunun təməlini qoyan şəxs olub. Ona görə bir daha onun xatirəsinə ehtiramımızı ifadə edirik.*

**Prezident İlham Əliyev:** Çox təşəkkür edirəm. Tamamilə haqlısınız ki, Heydər Əliyev Azərbaycanın dövlətçiliyini quran, ölkəni inkişaf yoluna yönləndirən, vətəndaş müharibəsinin qarşısını alan, 1990-cı illərin əvvəlində hökm sürən qarışıqlıq və xaos vəziyyətinə son qoyan şəxs idi. O, həmçinin bu gün də rəhbər tutduğumuz daxili və xarici siyasət prioritetlərini müəyyən etdi. Əlbəttə, 30 il ərzində dünya dəyişib, lakin bizim başlıca məqsədlərimiz dəyişməz olaraq qalıb – dövlətçiliyimizin möhkəmləndirilməsi, qabaqlayıcı tədbirlər görməklə milli maraqlarımıza əsaslanan fəal xarici siyasətin yürüdülməsi və Azərbaycanın iqtisadi, siyasi inkişafı. Buraya olduqca fəal regional siyasətin həyata keçirilməsini də əlavə etmək olar. Əlbəttə, müstəqilliyimizin ilk günlərindən əsas məqsədlərdən biri ölkəmizin ərazi bütövlüyünün bərpası idi. Buna da iki ildən bir az artıq əvvəl nail olunub.



Tamamilə haqlısınız ki, o, Azərbaycan-Çin münasibətlərinin inkişafında çox vacib rol oynayıb. Onun Çinə səfərləri və Çinin rəhbərləri ilə görüşləri əməkdaşlığımızın çərçivəsini yaratdı. O vaxtlar dünyada Azərbaycan o qədər də tanınmırdı. Bunun təməli məhz o vaxt qoyulub və bu gün mən olduqca şadam ki, ölkələrimiz arasında əlaqələr çox uğurla inkişaf edir və daha çox sahələri əhatə edir. Əməkdaşlığın gündəliyi 30 il əvvəlkindən daha genişdir. Bu münasibətlər qarşılıqlı hörmət və dostluq üzərində qurulub.

**Müxbir:** *Biz Bakının müxtəlif yerlərində atanızın heykəllərini gördük və onun adını daşıyan prospektlər, memoriallar var. Zənnimcə, burada Sizin atanıza olan ehtiram və məhəbbətin daha dərin mənası var. Şəxsən Sizin üçün atanız kim olub?*

**Prezident İlham Əliyev:** Xüsusilə Azərbaycan cəmiyyətində hər bir övlad üçün onun valideynləri çox əzizdir. Azərbaycan cəmiyyəti ənənəvi dəyərlər, ailə dəyərləri üzərində qurulub. Bu ənənələr dərin köklərə malikdir. Vacib haldır ki, 30 il müstəqil ölkə olaraq qlobal mühitdə yaşamağımıza baxmayaraq, bu ailə dəyərlərimizi və böyüklərə hörməti qoruya bilmişik. Bu, bizim cəmiyyətimizin təməlidir. Hər bir azərbaycanlı kimi, mənim üçün də atam əziz insan olub. O insan ki, ona bənzəməyə çalışırsan, xüsusilə ata ilə fəxr edə biləndə. Bu belə olur. Mənim üçün bu, böyük xoşbəxtlikdir, çünki mən həm şəxsən onun üçün, həm də Azərbaycan xalqı üçün ən çətin vaxtlarda atamın yanında olmuşam.

Onu da nəzərə almaq lazımdır ki, Azərbaycan böyük ölkə deyil. O vaxt artıq Azərbaycanın bir hissəsi Ermənistan tərəfindən işğal edilmişdi və biz nəhəng iqtisadi çətinliklərlə üzləşmişdik. İnflyasiya 1000 faizdən artıq idi. İşsizlik və yoxsulluq hökm sürürdü. Ordu demək olar ki, mövcud deyildi. Belə bir vəziyyətdə ölkəni parçalanmaqdan qorumağa, onu inkişaf yoluna çıxarmağa və bugünkü səviyyəyə çatdırmağa müvəffəq olmağı yalnız böyük şəxsiyyət edə bilərdi.

Bizim və şəxsən mənim hədəfim isə dünyanın və Azərbaycanın dəyişməkdə olduğunu nəzərə alaraq Heydər Əliyev siyasətini davam etdirmək, ölkəni müasirləşdirmək, bir də heç vaxt digərlərinin hökmranlığı altında yaşamamaq üçün müstəqilliyimizi möhkəmləndirmək, özünü təmin edən güclü iqtisadiyyat qurmaq və insanların daha yaxşı yaşamasına şərait yaratmaqdır.

Beləliklə, təkcə 100 illiyini qeyd etdiyimiz üçün deyil, ümumiyyətlə, müasir Azərbaycan haqqında danışarkən faktdır ki, təməl Heydər Əliyev tərəfindən qoyulub və 1990-cı illərin mürəkkəb dövründə onun liderliyi olmasaydı, bugünkü Azərbaycan başqa vəziyyətdə olacaqdı. Hansı problem və çətinliklərlə üzləşəcəyini heç təsəvvür etmək belə olmazdı.

**(davamı 2-ci səhifədə)**

# "ŞUŞA QLOBAL MEDİA FORUMU ÖLKƏMİZ VƏ QARABAĞ BÖLGƏSİ ÜÇÜN ÇOX MÖHTƏŞƏM TƏDBİRDİR"

"Şuşa Qlobal Media Forumu bizim ölkəmiz və Qarabağ bölgəsi üçün çox möhtəşəm bir tədbirdir".

Bu fikri iyulun 21-də Azərbaycan Prezidenti İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında deyib.

"Şuşa rəsmi olaraq Azərbaycanın Mədəniyyət Paytaxtıdır və bizim qələbəmizin rəmzidir. Şuşa, eyni zamanda, sülhün rəmzidir. Şuşa azad olunduqdan sonra İkinci Qarabağ müharibəsi başa çatdı.

Şuşada artıq bir neçə beynəlxalq tədbirin – "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının, Vaqif Poeziya Günlərinin və digər tədbirlərin keçirildiyini vurğulayan dövlətimizin başçısı deyib ki, işğal dövründə məqsədli şəkildə dağıdılmasına baxmayaraq, bu şəhər öz kimliyini qoruya bilib", - deyə dövlətimizin başçısı bildirib.






# "PREZİDENT ƏRDOĞAN İLƏ ŞƏXSİ DOSTLUĞUMUZ REGİONAL İNKİŞAF VƏ SABİTLİK BAXIMINDAN ÇOX MÜHÜM FAKTORDUR"

"Bizim Prezident Rəcəb Tayyib Ərdoğanla şəxsi dostluğumuz təkcə regionda deyil, dünyada məlum bir faktordur. Bu, regional inkişaf və sabitlik baxımından da çox mühüm bir faktordur".

Bu fikri iyulun 21-də Azərbaycan Prezidenti İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında deyib.

Türkiyə ilə Azərbaycan xalqları arasında da münasibətlərin uzunmüddətli dostluq və qardaşlıq əlaqələri üzərində qurulduğunu vurğulayan dövlətimizin başçısı deyib: "Bu, çox gözəl təməldir və bizim ölkələrimiz məhz bu təməl üzərində inkişaf edir və bir-birini dəstəkləyir", - deyə dövlətimizin başçısı bildirib.

(əvvəli 1-ci səhifədə)

**Müxbir:** ***Dünyanın dəyişməkdə olan geosiyasi mənzərəsi fonunda Azərbaycan həssas rol oynayaraq böyük nailiyyətlər əldə edə, iqtisadi və sosial baxımdan özü üçün nadir inkişaf yolu yarada bilib. İcazənizlə, Çin-Azərbaycan əlaqələrindən danışaq. Bu yaxınlarda Siz bu münasibətləri əla adlandırdınız. Hazırda vəziyyət nə yerdədir və Sizcə bu əlaqələri növbəti səviyyəyə qaldırmaq üçün nə edilməlidir?***

**Prezident İlham Əliyev:** Bəli, bunu bir daha təsdiq edə bilərəm ki, münasibətlər əla səviyyədədir və bu təhlil, bu ikitərəfli əlaqələrin geniş gündəliyini və əməkdaşlığın çox aydın perspektivlərini əhatə edir. Hesab edirəm ki, ikitərəfli əlaqələrdə əldə etdiyimiz nailiyyətlər çox uzun bir yolun başlanğıcıdır. Ümid edirəm ki, bu, strateji əməkdaşlıq yolunun başlanğıcıdır.

**Müxbir:** ***Siz bir neçə dəfə Prezident Si Cinpinlə görüşlərinizə toxundunuz. Sizin onun bir lider kimi haqqında fikriniz nədir, o, Sizdə necə təəssürat yaradır?***

**Prezident İlham Əliyev:** Mənim Prezident Si Cinpinlə həm Çində, həm də beynəlxalq tədbirlər çərçivəsində dəfələrlə görüşmək imkanım olub. Ona dərin ehtiramım var. Onun uzaqgörənliyi, zəkası, səmimiliyi və ikitərəfli münasibətlərimiz barəsində geniş məlumatlı olması məndə hər zaman dərin təəssürat yaradıb. Çünki qlobal bir güc olaraq Çinin çox geniş xarici siyasət gündəliyi var və həmin gündəlik təbii olaraq Azərbaycanın gündəliyindən daha genişdir.

Buna baxmayaraq, bizim əməkdaşlığımızın mahiyyəti və perspektivləri barədə dərindən məlumatlı olması göstərir ki, cənab Si Cinpin olduqca məsuliyyətli şəxsdir və çox uğurlu xarici siyasət bunun nəticəsidir. Bilirsiniz ki, dünyada Çinin dostlarının sayı ildən-ilə artır və bu, məhz həmin müdrik siyasətin nəticəsidir. Biz onun ölkəsinin inkişafını və yardıma ehtiyacı olanlara dəstək istiqamətindəki fəaliyyətini yalnız alqışlaya bilərik. Hesab edirəm ki, bu, dünyada nadir hallardan biridir. Bu, xüsusilə indi aktual məsələdir. Vaxtında və digər mənbələrdən yardım ala bilməyən ölkələrə kömək edilir. Sizə Azərbaycanla bağlı nümunə deyə bilərəm. COVID-19 başlayanda biz peyvəndlərin olmaması səbəbindən böyük çətinliklərlə üzləşdik və bu məsələdə bizə yardım edən yeganə ölkə Çin oldu. Mən Prezident Si Cinpinə yardım ilə bağlı məktub yazdım, məsələyə dərhal cavab verildi və peyvəndlərin ilk həcmi – bir milyon doza təqdim edildi. Biz vaksinasiyaya yanvar ayının ortalarında, dünyada ilk sıralarda başladıq. Bu isə onun yardım göstərmək siyasətindən qaynaqlanırdı. Biz bunu necə unuda bilərik?!

**Müxbir:** ***Bağlantı və infrastruktur layihələri haqqında danışarkən, qeyd edək ki, Azərbaycan bir rekorda imza atıb – bu, "Bir kəmər, bir yol" layihəsində iştirak edən ölkələr arasında 307 günə infrastruktur layihəsinin icrasıdır. Bu, ən qısa müddətdə icra deməkdir. Söhbət nəhəng infrastruktur layihəsindən gedir. Azərbaycan buna necə nail olub və "Bir kəmər, bir yol" layihəsinin faydasını necə görürsünüz?***

**Prezident İlham Əliyev:** İnkişafımızın hədəflərindən biri regional bağlantı mərkəzinə çevrilmək idi. Çünki xəritəyə baxsanız, Azərbaycanın coğrafi üstünlüklərini görərsiniz. Ölkəmiz Şərq-Qərb və Şimal-Cənub nəqliyyat marşrutları üzərində yerləşir. Lakin nəqliyyat infrastrukturunun olmaması elə bir vəziyyət yaratmışdı ki, bizim coğrafiyadan istifadə edilmirdi. Mən tam əmin idim ki, biz bu vəziyyəti yaxşılaşdıra bilərik. Biz nəqliyyat infrastrukturuna böyük sərmayə qoyuluşuna 15 il əvvəl başladıq. İlk olaraq yerli infrastrukturu inkişaf etdirmək üçün biz bu sahəyə böyük sərmayə yatırmağa başladıq. Eyni zamanda, qonşularımızla da bağlantı körpüləri qurmağa başladıq. Biz mühüm tranzit ölkəsi olmaq arzusundaydıq, ancaq bunun üçün təkcə coğrafiya kifayət etmir. Hətta infrastruktur da kifayət deyil, burada digər məsələyə ehtiyac var. Bu isə qonşularla yaxşı münasibətlərdir. Qonşularla əməkdaşlıq olmadan tranzit ölkəyə çevrilmək olmaz. Bu isə bizim xarici siyasətimizin tərkib hissəsi idi. Prioritet qonşu ölkələrlə qarşılıqlı maraq üzərində daha güclü münasibətlər qurmaq idi.

**Müxbir:** ***Prezident Əliyev, Sizə deməliyəm ki, iki il əvvəl BBC-nin jurnalistinə verdiyiniz müsahibədən sonra Çində kifayət qədər məşhurlaşdınız. Bir çox insanlar deyirdilər ki, Qərbə münasibətdə maraqların tarazlaşdırılması üçün ölkə rəhbəri məhz bu cür addım ata bilərdi. Bu, necə baş verdi?***

**Prezident İlham Əliyev:** Bilirsiniz, 44 günlük Vətən müharibəsi zamanı mən çox sayda müsahibələr verdim. Bu, əsasən, Qərb jurnalistlərinə verilən müsahibələr idi. Onların əksəriyyəti, deyərdim ki, çox aqressiv idi və çalışırdılar Azərbaycanı təcavüzkar kimi təsvir etsinlər. Bilirsiniz, öz ərazilərimizi azad etdikdə, ərazi bütövlüyümüz uğrunda vuruşduqda, biz digər ölkənin ərazisinə addım da atmadıq. Biz, sadəcə, üzləşdiyimiz 30 illik işğalın və etnik təmizləmənin nəticələrini aradan qaldırırdıq. Əlbəttə, əmin idim ki, videoreportaj hazırlamaq məqsədilə Azərbaycana gəlmiş və mənimlə görüşmək istəyən Qərb jurnalistləri yaxşıca hazırlaşmışlar. Münaqişənin tarixi, kimin təcavüzkar, kimin isə təcavüz qurbanı olması, nəyin baş verdiyi barədə onların bilməməsini təsəvvür etmək sadəlövhlük olardı. Lakin, eyni zamanda, onlar nəinki görüşümüz zamanı vəziyyəti təqdim etməyə çalışırdılar, - çünki Azərbaycanda olarkən çoxlu reportajlar hazırlamışdılar, - onlar çalışırdılar ki, Azərbaycanı təcavüzkar kimi qələmə versinlər. Əlbəttə, bu, tamamilə qəbuledilməz idi. Bütün bunlar Qərb mətbuatının qərəzli, qeyri-tarazlı və anti-Azərbaycan yanaşmasını nümayiş etdirdi və biz həmin reallıqda 30 il idi ki, yaşayırdıq. Bu, həqiqətdir.

**Müxbir:** ***Ermənistan-Azərbaycan münasibətlərinə gəldikdə, bilirik ki, atəşkəs mövcuddur, lakin vəziyyət mürəkkəb olaraq qalır. Əvvəlki hadisələrin hamısını nəzərə alaraq, cənab Prezident, Siz sülh müqaviləsi haqqında nə düşünürsünüz? Onu nə vaxt əldə olmaq olar? Əgər olarsa, o, necə olacaq?***

**Prezident İlham Əliyev:** Düşünürəm ki, ona ən yaxın gələcəkdə nail olmaq olar. Nəyə görə mən bu cür düşünürəm, çünki Ermənistan çox mühüm bəyanatla çıxış etməli idi ki, onlar nəinki Azərbaycanın ərazi bütövlüyünü tanıyırlar, - əslində, onlar bunu rəsmən ötən ilin oktyabrında bəyan etdilər və sonra bir neçə dəfə təsdiqlədilər, - həmçinin bu ilin mayında onlar bunu aydınlaşdırdılar, çünki biz tələb etdik ki, onlar Qarabağı Azərbaycanın hissəsi kimi tanıdıqlarını qeyd etsinlər. Onlar Azərbaycanın ərazi bütövlüyünü 86,6 min kvadratkilometr ərazidə tanıdılar. Bu əraziyə Qarabağ və Ermənistan ərazisində olan səkkiz Azərbaycan anklavı da daxildir. Bu, əslində, mühüm bəyanatdır. Bundan sonra qalan yeganə məsələ, bunu kağız üzərinə köçürmək və imzalamaqdır. İkinci Qarabağ müharibəsi bitdikdən sonra, sülh müqaviləsi ilə bağlı mövqeyimiz həmin müqavilənin beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanmasından ibarətdir. Biz sülh müqaviləsinin əsasını təşkil etməli olan beş beynəlxalq təməl prinsipini hazırladıq. Bir neçə dəfə danışıqlar aparılıb və iyunun sonunda davam etdiriləcək. Fikir ayrılığının yeganə əsas müddəası onunla bağlı idi ki, Ermənistan Qarabağı rəsmən Azərbaycanın hissəsi kimi tanısın. Artıq dediyim kimi, bir – onlar qeyd etməlidir ki, Qarabağ Azərbaycandır və indi isə, onlar ikincini etməlidirlər: imzalamalıdırlar. Bundan sonra razılaşma əldə oluna bilər və düşünürəm ki, əgər ermənilər söylədiklərini yerinə yetirərlərsə və əgər bu, yenidən siyasi manevr deyilsə, prosesi yubatmaq cəhdləri naminə ixtira edilən hekayət deyilsə, onda biz ilin sonuna qədər sülh müqaviləsinə nail olaraq, onu imzalaya bilərik. Bu, həqiqətən mühüm geosiyasi amilə çevrilə bilər, uzunmüddətli qarşıdurmaya son qoyar, Qafqazda real sülh yaradar, bütün kommunikasiyaları açar. Həmçinin əlavə etmək istəyirəm, Azərbaycandakı erməni azlığına gəldikdə, biz artıq rəsmən bəyan etmişik ki, onların hüquqları və təhlükəsizliyi Azərbaycan Konstitusiyası əsasında lazımınca qorunacaq. Bununla belə, Azərbaycan onlarla etnik qrupun, o cümlədən ermənilərin yaşadığı ölkədir. Bizim dini və ya etnik zəmində heç zaman hər hansı problemimiz olmayıb. Buna görə, Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilər hər hansı digər Azərbaycan vətəndaşı qədər bərabər hüquq və təhlükəsizlik zəmanətinə malik olacaqlar. Düşünürəm ki, bu, tam şəkildə beynəlxalq hüququn normalarına uyğundur və fikrimcə, Azərbaycanın bu mövqeyi beynəlxalq ictimaiyyət tərəfindən dəyərləndirilir.

**Müxbir:** ***Prezident Əliyev, ölkənizdə bizi qəbul etdiyinizə görə bir daha çox sağ olun. Bu müsahibəyə görə minnətdarıq.***

**Prezident İlham Əliyev: Sağ olun.**

## "BİZ CƏNUBİ QAFQAZDA VƏZİYYƏTİ SABİTLƏŞDİRMƏLİYİK, DAYANIQLI SÜLHƏ NAİL OLMALIYIQ"

"Biz Cənubi Qafqazda vəziyyəti sabitləşdirməliyik, dayanıqlı sülhə nail olmalıyıq, təhlükəsizlik təmin edilməlidir. Gələcəkdə burada həm qlobal məsələlərdə, xüsusilə bizim regionda Türkiyənin rolu çox önəmlidir və vacibdir". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında bildirib. Ankaranın sabitləşdirici rol oynadığını vurğulayan dövlətimizin başçısı deyib: *"Türkiyənin siyasəti regional təhlükəsizliyi və regional inkişafı təmin etməkdir. Bu rol həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda çox yüksək qiymətləndirilir"*.

## "İKİNCİ QARABAĞ MÜHARİBƏSİNİN İLK SAATLARINDAN TÜRKİYƏ RƏHBƏRLİYİ VƏ XALQI BİZİMLƏ ÇİYİN-ÇİYİNƏ DAYANMIŞDI"

"İkinci Qarabağ müharibəsinin ilk saatlarından Türkiyə rəhbərliyi ilə xalqı bizimlə çiyin-çiyinə dayanmışdı. Prezident Ərdoğanın Qarabağ müharibəsinin ilk saatlarında verdiyi bəyanat ki, Azərbaycan yalnız deyil, - bu, bizim üçün çox böyük dəstək idi". Bu fikri iyulun 21-də Azərbaycan Prezidenti İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında deyib.

"Biz bütün 44 gün ərzində həmin o mənəvi dəstəyi qardaşlarımızdan hiss etdik. Prezident Ərdoğan bir neçə dəfə ictimai şəkildə Türkiyənin mövqeyini bəyan etdi və digər dövlət rəsmiləri də bu məsələ ilə bağlı fikirlərini bildirdilər. Bu, bizim üçün çox böyük mənəvi və siyasi dəstək idi", - deyə Azərbaycan Prezidenti qeyd edib.

## "BU GÜN ORDUMUZ ÜÇ İL BUNDAN ƏVVƏLKİ ORDUDAN DAHA GÜCLÜDÜR"

"Biz hər hansı bir ssenariyə hazır olmalıyıq. Bu məqsədlə möhtəşəm Zəfərimizi nümayiş etdirən Qarabağ müharibəsi bitən kimi biz dərhal yenidən müdafiə sahəsində dərin islahatlar həyata keçirməyə başlamışıq".

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında bildirib. Bu gün Ordumuzun üç il bundan əvvəlki ordudan daha güclü olduğunu diqqətə çatdıran dövlətimizin başçısı deyib: ***"Əlbəttə ki, buna ehtiyac var, o da bizim tariximizdən qaynaqlanır. Biz görürük ki, bu gün beynəlxalq hüququn normaları kobud şəkildə pozulur. Biz görürük ki, beynəlxalq hüquq selektiv tətbiq edilir, biz uzun illər bu yanaşmaya məruz qalmışıq".***

BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmalı olduğu ilə bağlı dörd qətnamə qəbul etdiyini xatırladan Prezident qeyd edib: ***"Ancaq o qətnamələrə riayət edilmədi və bu gün həmin o tendensiya davam edir. Beynəlxalq hüquq işləməyəndə, imza o qədər də əhəmiyyətə malik olmayanda, sülhün qarantiyası yalnız gücdür".***

## "ŞUŞA BƏYANNAMƏSİ BİZİM QARŞIMIZDA YENİ ÜFÜQLƏR AÇIR"

"İkinci Qarabağ müharibəsində Qələbədən sonra Azərbaycan və Türkiyə de-fakto mövcud olan münasibətləri rəsmiləşdirdi və biz bunu məşhur Şuşa Bəyannaməsini imzalayaraq müttəfiqlik səviyyəsinə qaldırdıq".

Bu fikri iyulun 21-də Azərbaycan Prezidenti İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında deyib.

Dövlətimizin başçısı Şuşa Bəyannaməsinin əhəmiyyətini vurğulayaraq deyib: "Bu, bizim xalqlarımız və ölkələrimiz üçün çox böyük nailiyyətdir, böyük sərvətdir. Həmin bəyannamə bizim qarşımızda yeni üfüqlər açır.

Keçən ilin fevralında imzalanmış Bəyannamə Rusiya ilə Azərbaycan arasında münasibətlərin yeni mərhələsidir. Bu Bəyannamə müstəqilliyin müxtəlif dövrlərində müxtəlif şəkildə təşəkkül tapan münasibətlərin bir formasıdır.

Əlaqələrin artıq yeni strateji mərhələyə qədəm qoyduğunu qeyd edən dövlətimizin başçısı bildirib: ***"Hər iki ölkənin həyata keçirdiyi işlərin həcminə baxarkən görünür ki, hər iki tərəf əməkdaşlığın gücləndirilməsinə və konkret nəticəyə yönəlmiş işbirliyinə yönəlib. Biz bu münasibətlərin dərinliyinə yaxşı bələdik. Bizim qarşılıqlı əlaqələrin sferası olduqca genişdir".***

## "QOŞULMAMA HƏRƏKATI AZƏRBAYCANIN SƏDRLİYİ DÖVRÜNDƏ YENİ NƏFƏS QAZANDI"

"Səmimi şəkildə deyə bilərəm ki, Qoşulmama Hərəkatı Azərbaycanın sədrliyi dövründə yeni bir nəfəs qazanmışdır".

Bunu Azərbaycan Prezidenti İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında bildirib.

Son zamanlar Qoşulmama Hərəkatının nüfuzunun və təsirinin tədricən deqradasiya etdiyini, praktiki olaraq Hərəkatın fəaliyyəti ilə bağlı müəyyən müzakirələrin aparıldığını vurğulayan dövlətimizin başçısı bildirib: ***"İstənilən işdə olduğu kimi, biz bu işə də böyük məsuliyyətlə yanaşdıq və addım-addım institusional inkişaf istiqamətində işləməyə başladıq.***

***Azərbaycanın sədrliyi yekdilliklə birillik uzadıldı. Amma faktiki olaraq bu, bir il yarımlıq uzadılma oldu. Bu, o deməkdir ki, bizim sədrliyimizə ehtiyac var və o, müsbət qarşılanıb".***

## "NÖVBƏTİ ÜÇ İL ƏRZİNDƏ QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR RAYONLARI ÜZRƏ 150 MİNDƏN ÇOX İNSANI QAYTARACAĞIQ"

Bu fikri iyulun 21-də Azərbaycan Prezidenti İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında deyib.

**"Təkcə Qarabağ regionunda 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur. Şuşa şəhərində, ümid edirəm ki, gələn il birinci sakinlər gələcək, yerləşəcəklər"**, - deyə Azərbaycan Prezidenti qeyd edib.

# "ÜMİDVARAM Kİ, İLİN SONUNA QƏDƏR DAHA İKİ AVROPA ÖLKƏSİ AZƏRBAYCAN QAZININ ALICISINA ÇEVRİLƏCƏK"

"Cənub Qaz Dəhlizi layihəsi artıq müvəffəqiyyətlə icra olunub və artıq iki ildir ki, Azərbaycan Avropanın əhəmiyyətli qaz tədarükçüsünə çevrilib".
Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında bildirib. Avropa Komissiyasının Prezidentinin Azərbaycanı etibarlı tərəfdaş, Avropa İttifaqının enerji üzrə komissarının isə ölkəmizi Panavropa qaz tədarükçüsü adlandırdıqlarını xatırladan dövlətimizin başçısı qeyd edib: *"Sözsüz ki, bizim Avropaya qaz tədarükümüzün coğrafiyası genişlənir. Ümidvaram ki, ilin sonuna qədər daha iki Avropa ölkəsi Azərbaycan qazının alıcısına çevriləcək".*

# "ŞUŞA UNİKAL, MİSİLSİZ MƏKANDIR"

"Əlbəttə, Şuşanın bərpası başlanılıb, bir müddət əvvəl Baş plan təsdiq edilib və indi artıq ilk yaşayış binasının inşası layihəsi başlanıb. Həmin layihələr çərçivəsində Şuşa sakinləri evlərinə qayıdacaqlar".
Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında deyib. Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan olunduğunu qeyd edən dövlətimizin başçısı bildirib: *"Bizim gözləntimiz odur ki, dünyadan çoxsaylı qonaqlarımız olacaq, insan axını olacaq. Çünki bu, unikal, misilsiz məkandır. Burada tarix, mədəniyyət, memarlıq və iqlim vəhdət təşkil edir. Bu, bizim böyük sərvətimizdir".*

# "ERMƏNİ AZLIĞININ HÜQUQLARI VƏ TƏHLÜKƏSİZLİYİ KONSTİTUSİYAMIZA UYĞUN QORUNACAQ"

"Biz reinteqrasiya yolu ilə gedəcəyik, getməyə hazırıq. Erməni azlığının (Qarabağdakı – red.) hüquqları və təhlükəsizliyi Konstitusiyamıza uyğun olaraq qorunacaq".
Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Şuşa Qlobal Media Forumunda Qarabağın erməni əhalisinin inteqrasiyası ilə bağlı suala cavabında söyləyib.
Azərbaycanda digər məsələlərdə olduğu kimi, burada da xoş niyyətin nümayiş etdiriləcəyini deyən Prezident bildirib: "Azərbaycan multietnik, çoxdinli ölkədir. Bu da bizim sərvətimizdir, gücümüzdür. Bütün müxtəlif etnik qrupların, Azərbaycanda yaşayan qrupların nümayəndələri eyni hüquqlara malikdir, eyni öhdəliklər var və onların təhlükəsizliyi eyni səviyyədə qorunur. Nə üçün hər hansı bir etnik qrup istisna olmalıdır və digərlərindən üstün olmalıdır? Mən bunu anlamıram. Yəni, bizim yanaşmamız budur. Biz hələ də ümid edirik ki, Xankəndidə yaşayan insanların sağlam düşüncəyə malik bir hissəsi dərk edəcək ki, bu yanaşmanın perspektivi yoxdur". Azərbaycanı görməzdən gəlməyin mümkün olmadığını vurğulayan dövlətimizin başçısı qeyd edib ki, sağlam düşüncə qalib gəlməlidir.

# "AZƏRBAYCAN RƏQABƏT MƏKANI DEYİL, ƏMƏKDAŞLIQ MƏKANIDIR"

"Azərbaycan rəqabət məkanı deyil, əməkdaşlıq məkanıdır. Rusiya və ABŞ silahlı qüvvələrinin yüksək nümayəndələri, ordu qərargahlarının komandanları, NATO komandanları görüşlər üçün hər zaman Bakını seçiblər".
Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında bildirib. Bunun ölkəmizə etimadın, etibarın göstəricisi olduğunu vurğulayan dövlətimizin başçısı deyib: *"Belə görüşlər dörd və ya beş dəfə keçirilib. Bu da onu göstərir ki, Azərbaycan maraqları birləşdirən ölkədir. Hətta elə ölkələr arasında ki, onlar hər zaman rəqabətdədir. Yəni, bu, o vaxt idi ki, rəqabət dinc aparılırdı. İndiki şəraitdə isə Azərbaycanda belə təmaslar potensial olaraq yenə də bərpa edilə bilər".*

# PREZİDENT İLHAM ƏLİYEV KEÇMİŞ MƏCBURİ KÖÇKÜNLƏRƏ MÜRACİƏT EDİB

*"Biz (ərazilərin minalardan təmizlənməsində - red.) dronlardan fəal şəkildə istifadə edirik. Bizim bəzi parlaq zəkaya malik insanların sayəsində belə artıq dronlar var. Bu, bizə böyük kömək olur. Biz dərk edirik ki, bu, çox uzun prosesdir".*
Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında bildirib.
Ermənilərin bizə qarşı terrorunun davam etdiyini diqqətə çatdıran dövlətimizin başçısı deyib: *"Biz minalardan təmizlənməmiş əraziləri təcrid etmişik və azad olunmuş ərazilərə giriş hələ də məhduddur. Bu, bizə imkan verir ki, itkilərin qarşısını alaq. Ancaq keçmiş məcburi köçkünlər kütləvi şəkildə qayıdacaqsa, onlar çox ehtiyatlı olmalıdırlar".*
Azərbaycan Prezidenti keçmiş məcburi köçkünlərə, həmvətənlərimizə müraciət edərək bildirib ki, icazə olmayan ərazilərə səfər etməsinlər. Bu, olduqca təhlükəlidir.

# "AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ ŞƏHƏRLƏRİN BƏRPASI NÖVBƏTİ BEŞ İL ƏRZİNDƏ MÜMKÜN OLACAQ"

"İşğaldan əziyyət çəkən bir milyon insan öz dədə-baba torpaqlarına qayıtmalıdır".
Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında bildirib. *"Hesab edirəm ki, mərhələli yollarla şəhərlərin bərpası növbəti beş il ərzində mümkün olacaq. Laçın şəhərinin timsalında deyə bilərəm ki, cəmi səkkiz ay ərzində Laçın şəhəri tamamilə yenidən quruldu və bu gün orada 700-dən çox ailə üçün şərait - həm fərdi evlər, həm çoxmənzilli evlər var. Sentyabrın 15-dək məktəb də, uşaq bağçası da, xəstəxana da hazır olacaq. Digər sosial obyektlər də inşa edilir"*, - deyə dövlətimizin başçısı vurğulayıb.

# RAŞİD ƏL-KİNDİ: ŞUŞANIN NECƏ İNKİŞAF ETDİYİNİN ŞAHİDİ OLDUM

"Mən düşünürəm ki, Şuşa Qlobal Media Forumu Azərbaycanın bu gözəl şəhərində öz işini uğurla yekunlaşdıracaq".
Bunu AZƏRTAC-a müsahibəsində Oman Xəbər Agentliyinin Elektron xəbərlər departamentinin direktoru Raşid əl-Kindi "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda söyləyib.
Forumun açılış mərasimində xüsusilə Azərbaycanda investisiyalarla bağlı Prezident İlham Əliyev tərəfindən qaneedici cavabların verildiyini bildirən Raşid əl-Kindi, həmçinin bir çox məsələlər haqqında maraqlı söhbətlər aparıldığını diqqətə çatdırıb.
Azərbaycana ilk dəfə səfər etdiyini bildirən qonaq deyib: "Burada gördüklərim məndə çox xoş təəssürat yaratdı. Həqiqətən də Şuşanın necə inkişaf etdiyinin şahidi oldum".



# "ŞUŞA GƏLƏCƏKDƏ NƏİNKİ REGİONDA, DÜNYADA ƏN GÖZƏL ŞƏHƏRLƏRDƏN BİRİ OLACAQ"

"Bu gün Şuşada Qlobal Media Forumu keçirilir. Ümidvaram ki, mədəniyyət paytaxtı Şuşada bu forum hər il keçiriləcək".
Bunu Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda jurnalistlərə açıqlamasında deyib.



Qlobal Media Forumunun açılış mərasimində çıxışı zamanı Prezident İlham Əliyevin Qarabağ Zəfəri və sonrakı mərhələlər barədə geniş məlumat verdiyini bildirən K.Ömüralıyev qeyd edib: *"Şuşa gələcəkdə nəinki regionda, dünyada ən gözəl, ən yaxşı şəhərlərdən biri olacaq, mən buna inanıram".*

# ŞUŞA FORUMU MEDİANIN İNKİŞAFI ÜÇÜN ÖNƏMLİ BİR AÇARDIR

"Burada yerli və xarici media orqanları öz fikirlərini və məlumatlarını bölüşürlər və müzakirələr aparırlar. Bu, bir ölkənin mediasının inkişafı üçün çox əhəmiyyətlidir və düşünürəm ki, Azərbaycan üçün önəmli bir addımdır".
Bu fikirləri Avropa Xəbər Agentlikləri Alyansının (EANA) Baş katibi Aleksandr Giboi deyib.
Şuşaya ikinci dəfə səfər etdiyini diqqətə çatdıran Baş katib budəfəki Qlobal Forumun Azərbaycandakı media üçün çox önəmli olduğunu vurğulayıb. *"Medianın inkişafı bilavasitə cəmiyyətin tərəqqisinə təkan verir. Ona görə də hesab edirəm ki, Şuşa Forumu medianın inkişafı üçün önəmli bir açardır"*, - deyə Aleksandr Giboi əlavə edib.



# "FORUMUN DAVAM ETDİYİ NÖVBƏTİ İKİ GÜNDƏ HAMIMIZ PREZİDENT İLHAM ƏLİYEV İLƏ GÖRÜŞDƏN RUHLANACAĞIQ"



"Açıq, səmimi, çox dərin və vacib söhbətə görə Prezident İlham Əliyevə təşəkkür edirik. Prezident qlobal media ictimaiyyətinin liderləri ilə iki saatdan çox vaxt keçirib, bütün suallara ətraflı, inandırıcı, əsaslı cavab verib. Biz indi müxtəlif ölkələrdən həmkarlarımızla, dostlarımızla təəssüratımızı bölüşdük. Bütün bunlar mənim bütün həmkarlarıma inanılmaz təsir bağışlayıb".
AZƏRTAC xəbər verir ki, bunu TASS informasiya agentliyinin Baş direktorunun birinci müavini Mixail Qusman "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda jurnalistlərə açıqlamasında deyib.
*"Biz Prezidentin problemləri necə bildiyini, onun problemləri necə dərindən tədqiq etdiyini hər zaman bilirdik. Lakin bugünkü söhbət son dərəcə inanılmaz oldu. Bütün mövzular – həm beynəlxalq, həm daxili, həm Ermənistan ilə sülh müqavilısinin bağlanması ilə əlaqədar Azərbaycan üçün ən aktual problemlər, ölkənin inkişafı ilə bağlı strateji məsələlər, Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının lideri kimi mövqeyi əhatə olunub. Bütün bunlar Prezidentdən bizə çox böyük hədiyyə oldu. Bu, eyni zamanda, forum üçün güclü impulsdur"*, - deyə M.Qusman diqqətə çatdırıb.
O vurğulayıb ki, forumun işinin davam etdiyi növbəti iki gündə hamımız Prezident İlham Əliyev ilə görüşdən ruhlanacağıq.

# "QARABAĞIN BƏRPASI AZƏRBAYCAN ÜÇÜN BÖYÜK ƏHƏMİYYƏT KƏSB EDİR"

"Şuşada keçirilən Qlobal Media Forumu çox əlamətdar hadisədir. İndi bizim həqiqətən qlobal mediaya diqqət yetirməyimiz son dərəcə vacibdir. Qarabağın bərpası Azərbaycan üçün böyük əhəmiyyət kəsb edir. Düşünürəm ki, bizim burada müzakirə edəcəyimiz məsələ həm ənənəvi radio-televiziyanın, həm də sosial medianın, bütün formalarda olan medianın Azərbaycanı dünya səhnəsində həqiqətən düzgün təmsil etmək üçün necə qəbul oluna biləcəyidir".
Bunu AZƏRTAC-a müsahibəsində britaniyalı jurnalist və ekspert Neil Vatson "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda söyləyib. *"Mən Prezident İlham Əliyevin bugünkü çıxışından çox təsirləndim. Onun üç dildə səlis çıxışı tamamilə qeyri-adi idi və dünyanın hər yerindən olan insanların suallarını cavablandırırdı. Prezident çox adekvat cavab verirdi. Bu, əlbəttə ki, gələcəkdə çox böyük bir işin başlanğıcı olacaq"*, - deyə Neil Vatson diqqətə çatdırıb.

# PREZİDENT İLHAM ƏLİYEV FORUMDA DÜNYAYA BİR DAHA QARABAĞIN AZƏRBAYCANIN OLDUĞU MESAJINI VERDİ



"Şuşa şəhərinə gələrkən yolda iki fərqli mənzərə ilə rastlaşdım. Bir tərəfdə ermənilərin törətdiyi vandallıqlar, digər tərəfdə isə Azərbaycanın bərpa etdiyi Şuşa şəhəri var".
Bunu AZƏRTAC-a müsahibəsində NTV-nin xarici xəbərlər departamentinin rəhbəri Əhməd Yeşiltəpə söyləyib.
"Ötən gün Prezident İlham Əliyev Forum iştirakçıları ilə görüşü zamanı dünyaya bu torpaqların Azərbaycanın olduğunu, bu səbəbdən sahib çıxdıqlarını və yenidən inşa etdikləri mesajını verdi", - deyə o diqqətə çatdırıb.
Türkiyədə Azərbaycanın mədəniyyətinə, musiqisinə, burada baş verən hadisələrə çox böyük marağın olduğunu deyən Ə.Yeşiltəpə qeyd edib ki, Türkiyə mediasının Türk dünyası ölkələri ilə bağlı daha çox xəbər verməsinin vacibliyini vurğulayıb.

# TEXNOLOGİYA SAHƏSİNDƏKİ İNKİŞAF MEDİADA YENİ ÇAĞIRIŞLAR YARADIR

"Müasir dövrdə texnologiyada baş verən yeniliklərin xəbərlərin hazırlanmasına mənfi təsirləri də var. Texnologiya sahəsindəki inkişaf mediada yeni çağırışlar yaradır".
Bu fikirləri Şuşa Qlobal Media Forumu çərçivəsində keçirilən "Medianın gələcəyi: Rəqəmsal dövrdə jurnalistika və kommunikasiyada yeni alətlər və medianın rolu" adlı sessiyada çıxışı zamanı "Global Policy" İnstitutunun prezidenti Paolo von Schirach söyləyib.
O deyib ki, bir qrup təşkilatların yalan informasiyaları insanların xəbərlərə olan inamını itirib. Bunun düşünülmüş siyasət olduğunu diqqətə çatdıran Paolo von Schirach əlavə edib: ***"Biz görürük ki, xəbərlər 24 saat ərzində dayanmadan yenilənir. Hər şəxs özü üçün xəbər agentliyi yaratmağa çalışır. ABŞ-da olan bəzi şirkətlər eyni şərhi, fikri yayımlayırlar. Xəbər-***




***lər və əyləncələr arasında sərhəd itib, artıq çox eyniləşmə müşahidə olunur. Başa düşmək olmur ki, sənədli filmə baxırıq, yoxsa bir şouya. Bütün bunlar dezinformasiyaların yayılmasına gətirib çıxarır".***

# "BİZ HƏMİŞƏ DÜNYAYA HƏQİQƏTİ ÇATDIRMALIYIQ"

"1992-ci ilin fevralında Xocalı faciəsi baş verdi, beynəlxalq jurnalistlərin çox az hissəsi bu soyqırımını işıqlandırdı. Əgər o vaxt beynəlxalq media susmasaydı, dünyada bir çox başqa faciələrin qarşısını almaq mümkün olardı. Bir gecədə Xocalının 600-dən artıq dinc sakini, o cümlədən qadınlar və uşaqlar qətlə yetirildi. Erməni siyasətçiləri yalan informasiyalar yayır, Xocalı həqiqətlərini gizlədirdilər. Hətta ən nüfuzlu KİV-lərin, beynəlxalq təşkilatların nümayəndələri Xocalıya gəlmədilər".
Bu barədə jurnalistlərə müsahibəsində "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda iştirak edən litvalı hərbi jurnalist Riçardas Lapaytis bildirib. Onun ünvanına tez-tez təhdidlər olduğunu qeyd edən litvalı jurnalist Xocalıda baş vermiş bir hadisə barədə danışıb: "Otaqların birinə iki azərbaycanlı qızcığazın cəsədlərini gətirdilər və dəmir masanın üzərinə qoydular. Onlardan birinin dörd, digərinin isə beş yaşı vardı. Onların paltarları qana bulanmışdı. Kiçik qızlar ölmüşdü, lakin gözləri açıq idi. Bədənlərində yaxın məsafədən vurulan güllə, həmçinin bıçaq yaralarını görmək olardı. Otaqda yalnız iki jurnalist var idi. Bu uşaqların valideynləri də orada idi. Dərin sükut hökm sürürdü. Otağa bir nəfər daxil oldu, balacaların qanlı başlarını qaldırdı və yastığın üzərinə qoydu. Mən soruşdum: "Bunu nədən edirsiniz?" O cavab verdi: "Onlar körpədir, dəmir masanın üzərində üşüyəcəklər". Bundan sonra mən həmin otaqdan çıxdım və özümə söz verdim: heç vaxt heç bir təhdiddən qorxmayacağam, heç vəchlə! Biz (jurnalistlər-red.) həmişə dünyaya həqiqətləri çatdırmalıyıq". Riçardas Lapaytisin sözlərinə görə, 30 il əvvəl o, Şuşada olacağını yalnız arzu edə bilərdi. O, sonda deyib: ***"Bu gün səhər saat 5-də oyanmışam, küçəyə çıxdım və təmiz havadan zövq aldım. Şuşa sadəcə qala deyil, həm də azərbaycanlılar üçün doğma şəhərdir. Şuşa muğamın, dahi şair və yazıçıların vətənidir".***



## Rumıniya mətbuatı Şuşada keçirilən Qlobal Media Forumundan yazıb




Rumıniyanın nüfuzlu KİV-ləri, "AGERPRES" milli xəbər agentliyi, "Ultima ora" qəzeti, "news24hours" xəbər portalı və bunlara istinadən digər KİV-lər Şuşa şəhərində keçirilən Qlobal Media Forumu barədə davamlı məqalələr, videolar yayıb.
Məqalələrdə cümə günündən bazar gününə kimi keçiriləcək tədbirlərdə kütləvi informasiya vasitələri və informasiya-kommunikasiya sahəsində qlobal səviyyədə aktual mövzuların müzakirə olunduğu qeyd edilir. Bildirilir ki, Milli Mətbuat Günü münasibətilə tədbir Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilir. Diqqətə çatdırılıb ki, Azərbaycan Prezidenti İlham Əliyev cümə günü 50 ölkədən olan 120 media qurumunu təmsil edən 200-dən çox qonaq, o cümlədən AGERPRES-in baş direktoru Klaudiya Nikolae ilə də görüşüb. Dövlət başçısı çıxışında bildirib ki, Azərbaycanda kütləvi informasiya vasitələrinin müstəqilliyi cəmiyyətin inkişafı üçün ən mühüm şərtlərdən biridir.
Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan iqtisadiyyatı özünü təmin edir, ölkədə sabitlik hökm sürür, cəmiyyətdə həmrəylik səviyyəsi həmişəkindən yüksəkdir, ölkənin iqtisadi inkişafı yüksək templə irəliləyir. Bildirilir ki, Prezident Cənubi Qafqazda vəziyyətin sabitləşdirilməsinin, davamlı sülhə nail olunmasının və təhlükəsizliyin təmin edilməsinin vacibliyini qeyd edib. Bu kontekstdə o, Ankaranın sabitləşdirici rol oynadığını və gələcəkdə qlobal məsələlərdə, xüsusən də bu regionda Türkiyənin rolunun çox əhəmiyyətli olduğunu vurğulayıb.

# Rəsmi xronika 20-21 iyul 2023-cü il

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Cəlilabad rayonunda olub. Dövlətimizin başçısı Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Füzuli rayonunda olub. Dövlətimizin başçısı 1-ci texniki dərəcəli Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun Füzuli Beynəlxalq Hava Limanına qədər olan 27 kilometrlik hissəsinin tikintisi ilə tanış olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Xocalı rayonunun işğaldan azad edilmiş Çanaqçı və Sığnaq kəndlərində olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də Şuşa rayonunun Daşaltı kəndinin yenidən qurulması ilə bağlı görüləcək işlərlə tanış olub, burada özəl investisiya hesabına inşa ediləcək yeni yaşayış kompleksinin və turizm obyektlərinin təməlini qoyub.

* * *

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 90 çarpayılıq Şuşa şəhər xəstəxanasının binasında tikinti işlərinin gedişi ilə, 1 nömrəli tam orta məktəbin binasında tikinti işlərinin gedişi ilə tanış olub.

## Prezident İlham Əliyev ictimai xadim Marianna Vardinoyannisin vəfatı ilə bağlı ailəsinə başsağlığı verib

Başsağlığında deyilir: "Görkəmli ictimai xadim, parlaq şəxsiyyət Marianna Vardinoyannisin vəfatı xəbərini sonsuz kədər hissi ilə qarşıladıq. Marianna Vardinoyannis dərin məzmunlu və şərəfli ömür yolu keçərək, insanlıq və bəşəriyyət naminə nəcib əməlləri, bəşəri dəyərlərin təşviqi, çoxşaxəli humanitar və xeyriyyəçilik fəaliyyəti ilə dünyada böyük nüfuz və ehtiram qazanmışdı.
Yüksək insani keyfiyyətləri özündə cəmləşdirən Marianna Vardinoyannis Azərbaycanın əsl dostu idi. Onun Azərbaycan və Yunanıstan xalqları arasında dostluq əlaqələrinin inkişafında böyük xidmətləri var idi. Məhz buna görə o, Azərbaycan Respublikasının "Dostluq" ordeni ilə təltif olunmuşdur.
Bütün həyat və fəaliyyətini uca amallara həsr etmiş səmimi və xeyirxah insan Marianna Vardinoyannisin əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.
Bu ağır itkinin acısını bölüşür, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verirəm".

## Ərəb mediası Prezident İlham Əliyevin Şuşa Qlobal Media Forumundakı çıxışına geniş yer ayırıb



Azərbaycan Prezidenti İlham Əliyevin "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumundakı çıxışı ərəb mediasının da diqqət mərkəzində olub.
Misirin MENA xəbər agentliyinin saytında və nüfuzlu "Əl Əhram" qəzetində "Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərin inkişafının prioritet məsələ olduğunu bildirib" sərlövhəli məqalə dərc edilib.
Məqalədə qeyd olunub ki, Misirin MENA agentliyinin müxbiri Məcid Şalkinin mina təhlükəsizliyi ilə bağlı sualını cavablandıran Prezident İlham Əliyev müharibə bitəndən sonra minaların azad olunmuş ərazilərdə üç yüzdən artıq insanın həyatına son qoyduğunu və ya onları ağır şəkildə yaraladığını deyib. O vurğulayıb ki, bu, müharibə cinayətidir və həmin minaların xəritəsini təqdim etməyən Ermənistan Azərbaycana qarşı terroru davam etdirir.
MENA agentliyi qeyd edib ki, Prezident İlham Əliyev Azərbaycan ərazilərində bir milyondan artıq mina basdırıldığını, ermənilərin verdiyi xəritənin isə təqribən 400 min minanı əhatə etdiyini bildirib. Bu, həm də Ermənistanın 400 min mina basdırması barədə etirafıdır. Azərbaycanın dövlət başçısı təəssüflə qeyd edib ki, ermənilərin mina terroru nəticəsində qurbanlar var və gələcəkdə də olacaqdır.

## Birinci vitse-prezident Mehriban Əliyeva Vardis Vardinoyannis ailəsinə başsağlığı verib

Başsağlığında deyilir: "Səmimi dostum, əziz və dəyərli insan olan Mariannanın vəfatı məni dərindən sarsıtdı. Yaxın insanı itirmək ağrısı heç nə ilə müqayisə oluna bilməz.
Qəlblərimizi dolduran bu kədər hissini ifadə etməyə söz tapmaq çətindir.
Görkəmli ictimai xadim, vəfalı ömür-gün yoldaşı, etibarlı dost – Marianna onu tanıyanlar üçün xeyirxahlıq, nəciblik, mərhəmət, şəfqət rəmzi idi.
O, parlaq, çalışqan, təşəbbüskar, insanların ağrı-acısını dərindən hiss etməyi bacaran əvəzsiz şəxsiyyət olaraq yaddaşlarda qalacaqdır.
Marianna Vardinoyannis həm də Azərbaycanın səmimi dostu idi. Təsadüfi deyil ki, onun Azərbaycan və Yunanıstan xalqları arasında dostluq əlaqələrinin inkişafındakı xidmətləri yüksək qiymətləndirilərək Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Dostluq" ordeni ilə təltif edilmişdir.
Marianna ilə görüşlərimiz zamanı yaratdığı sevgi dolu, xoş və unudulmaz xatirələr daim qəlbimdə yaşayacaqdır.
Bu ağır günlərdə dərdinizi bölüşür, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verir, səbir diləyirəm.

**Səmimiyyətlə,**
**Sizin Mehriban Əliyeva"**

# İpək yolu yeni minilliyə gedən yoldur

(əvvəli ötən sayımızda)

**- Bizim maraqlı söhbətimizi yekunlaşdıraraq nə deyə bilərsiniz?**

- Gənc, müstəqil Azərbaycan öz xalqının xeyrinə, dünya tərəqqisinin xeyrinə, qarşılıqlı surətdə faydalı əməkdaşlığın xeyrinə əlverişli nəqliyyat şəraitindən, coğrafi mövqeyindən istifadə etmək üçün real imkan əldə edibdir.

Ümumilli lider Heydər Əliyev bu mötəbər sammitin keçirilməsinin fəal təşəbbüsçüsü olmaqla nəinki son dərəcə düzgün tarixi addım atmışdır, həm də dünya birliyini, Avropanın, Qafqazın, Asiyanın bir çox dövlətlərini, beynəlxalq təşkilatlarını inandırmışdır ki, Azərbaycan yeni iqtisadi sistemin yaradılmasında islahatlar yolu ilə inamla irəliləyir, dünya inteqrasiya proseslərində fəal iştirak edir. Bu isə Azərbaycanın gələcəyi haqqında nikbin proqnozlar üçün etibarlı amildir.

Ulu Öndər Heydər Əliyev 1998-ci ilin fevral ayında Yaponiyada ilk rəsmi səfərdə olarkən "En-Eyc-Key" telekanalının müxbirinə demişdir: ***"İpək yolu müasir infrastruktur yaradılmasını nəzərdə tutur. Buna görə də Yaponiya bir infrastrukturun yaradılmasına öz maliyyə imkanları ilə, əlbəttə, böyük töhfə verə bilər. Məsələn, Bakı dəniz limanını, Türkmənistanda Türkmənbaşı limanını inkişaf etdirmək olar. Gürcüstanda Qara dəniz sahilindəki Poti limanını inkişaf etdirmək lazımdır..."***

Ulu Öndər Avropa İttifaqı ilə apardığı danışıqlarda Azərbaycanın strateji mövqedə yerləşməsini, Şərqlə Qərb arasında iqtisadi əlaqələrin genişləndirilməsində müstəsna rol oynadığını bildirir, Bakı dəniz limanının, Xəzər Gəmiçilik İdarəsinin bu baxımdan böyük potensiala malik olduğunu xüsusi olaraq vurğulayırdı. Qeyd edək ki, bütün beynəlxalq qurumlar, dövlət başçıları ilə apardığımız bu danışıqlar və Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, Avropa İttifaqının Azərbaycana bir müstəqil dövlət kimi marağını əhəmiyyətli dərəcədə artırdı.

Avropa İttifaqı "İpək yolu" layihəsi ilə bağlı beynəlxalq səviyyəli bir tədbirin Azərbaycanda keçirilməsinə razılıq verdi. 1998-ci il sentyabrın 20-də Bakı şəhərində "İpək yolu" layihəsi ilə bağlı Azərbaycanın ev sahibliyi etdiyi geniş və yüksək səviyyəli beynəlxalq konfrans keçirildi.

Belə bir yüksək səviyyəli toplantının baş tutmasında da, heç şübhəsiz ki, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin xidmətləri müstəsna idi. Tədbir Heydər Əliyevin parlaq, əhatəli, son dərəcədə məzmunlu, gələcəyə hesablanmış giriş və yekun çıxışları ilə də yaddaşlarda qaldı. Konfrans müstəqil Azərbaycan dövlətinin iqtisadi qüdrətinin, siyasi nüfuzunun artmasına xidmət edən Heydər Əliyev strategiyasının düzgünlüyünü, reallığını bir daha təsdiq etdi. Bakı Sammitinin ölkəmiz üçün, onun sülh, əməkdaşlıq, təhlükəsizlik şəraitində yaşaması üçün nə qədər vacib olduğu barədə Heydər Əliyev demişdir:

*"Konfransın Azərbaycanda keçirilməsi ölkəmiz üçün tarixi bir hadisədir. Biz tariximizi yaxşı bilirik və ona görə də cəsarətlə demək olar ki, Azərbaycanın çoxəsrlik tarixində belə böyük beynəlxalq konfransın keçirilməsi ilk hadisədir. Doğrudur, keçmiş illərdə, xüsusən 60-70-80-ci illərdə Azərbaycanda bir çox böyük tədbirlər keçirilibdir. Onların əksəriyyəti Sovet İttifaqı respublikaları çərçivəsində olubdur. Respublikamızda bəzi beynəlxalq tədbirlər də keçirilibdir. Onlar da ya bəzi sosialist ölkələrinin iştirakı ilə, ya da bəzi beynəlxalq fəhlə hərəkatı, yaxud kommunist hərəkatı təşkilatlarının iştirakı ilə keçirilibdir. Onların heç biri yüksək dövlət səviyyəsində olmayıbdır. Mən bir də deyirəm və qətiyyətlə, cəsarətlə deyirəm ki, tarixə nəzər salarkən Azərbaycan Respublikasının, dövlətinin, ölkəsinin tarixində bu, ilk böyük beynəlxalq konfransdır. Biz bunu yüksək qiymətləndirməliyik və bu, Azərbaycan xalqının, dövlətinin böyük nailiyyəti kimi qiymətləndirilməlidir. Beynəlxalq konfransın Azərbaycanda keçirilməsi Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsini, inkişaf etməsini və beynəlxalq aləmdə tamamilə tanınmasını nümayiş etdirir. Bu bizim müstəqilliyimizin, suverenliyimizin rəmzidir. Bu, böyük tarixi hadisədir. Vətənini, torpağını, millətini, ölkəsini sevən hər bir azərbaycanlının, Azərbaycan vətəndaşının bu hadisə ilə fəxr etməyə əsası vardır və bununla hər bir adam fəxr edə bilər. Çünki bu, bizim millətimizin, ölkəmizin, dövlətimizin adıdır. Biz müstəqil dövlət kimi Bakı Sammitində 32 dövlətin və nüfuzlu beynəlxalq təşkilatların iştirakı ilə nümayəndə heyətlərini qəbul etdik və dünyanın böyük bir hissəsini əhatə edən əraziyə məxsus böyük bir proqramın - tarixi İpək yolunun bərpası proqramının əsasını qoyduq".*

Konfransda çıxış edən nüfuzlu dövlət və hökumət başçıları tərəfindən Brüssel Bəyannaməsinə geniş şəkildə toxunuldu. Bakı Sammitinin açılışı zamanı Heydər Əliyev dedi:

"Konfransımız yeni müstəqil dövlətlərə kömək edilməsi sahəsində Avropa İttifaqının göstərdiyi səmərəli səylərin nəticəsidir.

Brüssel Bəyannaməsi Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin əhəmiyyətini, onun inkişaf etdirilməsi sahəsində əməkdaşlığın konkret istiqamətlərini, forma və mexanizmlərini müəyyənləşdirmiş ilk beynəlxalq sənəd olubdur. TRASEKA proqramının uğurla həyata keçirilməsi, Avropa İttifaqı Komissiyasının və iştirakçı ölkələrin gördükləri böyük iş, əməkdaşlığımızın konkret müsbət nəticələri daha geniş miqyaslı layihələrin işlənib hazırlanmasına təkan veribdir. Tarixi Böyük İpək yolunun bərpası bu layihələr arasında başlıca yer tutur.

O vaxtdan 5 il keçibdir. Bu gün biz şahidi oluruq ki, həmin zəmin çox dəyərli, etibarlı olmuş və böyük beynəlxalq təşkilata çevrilibdir. Bu gün Azərbaycanda, bəlkə də, onun tarixində, daha dəqiq desək, dövlət müstəqilliyi qazandıqdan sonra ilk dəfə olaraq, belə bir beynəlxalq konfrans keçirilib, 32 ölkənin və 13 beynəlxalq təşkilatın nümayəndələri burada, Bakıda toplaşıblar. Biz bunu müstəqil, suveren Azərbaycana, ölkəmizə böyük hörmət kimi qəbul edirik və bu etimada, hörmətə layiq olmaq üçün bütün tədbirləri görəcəyik".

Ulu Öndər çıxışının sonunda bildirdi ki, Bakı konfransı bizləri daha da yaxınlaşdırır, daha çox əməkdaşlığa, qarşılıqlı anlaşmaya, dostluğa çağırır. TRASEKA proqramında iştirak edən ölkələrin, şübhəsiz ki, hər biri belə bir konfransın öz ölkəsində keçirilməsinin arzusunda olub və namizədliyini veribdir. Azərbaycan da konfransın Bakıda keçirilməsi təklifini irəli sürübdür. Bununla bağlı Heydər Əliyev qeyd edirdi ki, bu, çox məsuliyyətli, çətin işdir: ***"Ermənistan - Azərbaycan münaqişəsi mövcud olduğu zaman belə böyük beynəlxalq konfransın Azərbaycanda keçirilməsi bizim üzərimizə həm böyük vəzifələr və həm də məsuliyyət qoyur. Ancaq həm Avropa Birliyinin Komissiyası, həm də TRASEKA proqramında iştirak edən ölkələrin əksəriyyəti bu konfransın Azərbaycanda keçirilməsinə razılıq verib və bu tədbirlə bağlı qərar qəbul ediblər".***




TRASEKA proqramının reallaşmasında Azərbaycan dövlətinin qurucusu və memarı, böyük öndər Heydər Əliyevin xidmətləri müstəsnadır, əvəzedilməzdir. Məhz onun qətiyyəti və böyük, yenilməz iradəsi sayəsində bir sıra önəmli layihələr kimi, bu layihə də gerçəkliyə çevrilə bildi.

Heydər Əliyev çıxışında demişdir: ***"Tarixi İpək yolunun bərpası, yeni-yeni ölkələrin və regionların ona cəlb edilməsi, xalqlarımızın yaxınlaşması və qarşılıqlı surətdə zənginləşməsi, yeni müstəqil dövlətlərin istiqlaliyyətinin və suverenliyinin möhkəmlənməsi bu dövlətlərdə demokratik islahatların, bazar iqtisadiyyatı islahatlarının uğurla aparılması üçün güclü təkan verəcək, hamı üçün sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunmasına kömək göstərəcək. Böyük İpək yolu keçmişdə başlansa da, gələcəyə doğru gedən yoldur. Mən inanıram ki, əgər biz əməkdaşlıq edə-edə, bir-birimizə hörmət bəsləyərək və bir-birimizi dəstəkləyərək bu yolla birlikdə getsək, o, xalqlarımızı firavanlığa və tərəqqiyə gətirib çıxaracaq".*** Heydər Əliyev bu sözləri ilə konfransın bütövlükdə hədəflərinin nədən ibarət olduğuna tam aydınlıq gətirdi və perspektivlər, gələcək əməkdaşlıq üçün bir "yol xəritəsi" cızmış oldu...

Konfransda digər ölkələrin də dövlət və hökumət başçıları, bir sıra beynəlxalq qurumların, ən əsası Avropa İttifaqının nümayəndəsi çıxış edərək, önəmli mesajlar verdilər... Həqiqətən də, Bakı konfransı çox tarixi, çox unikal, illərlə deyil, bəlkə də əsrlərlə xatırlanacaq, üzərinə qayıdılacaq, tez-tez istinad olunacaq bir konfrans idi.

Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, Xəzərin statusunun qəbul edilməsi, Yeni Bakı limanının, Bakı Gəmiqayırma zavodunun fəaliyyətə başlaması, Xəzər Dənizçilik Donanmasının müasir gəmilərlə təminatının ildən-ilə yaxşılaşması, Ələt Xüsusi İqtisadi Zonasının yaradılması, eləcə də nəqliyyat kompleksinin inkişafına xidmət edən mühüm tədbirlərin həyata keçirilməsi təkcə Azərbaycanın deyil, Türk dövlətlərinin iqtisadi gücünü, beynəlxalq aləmdə nüfuzunu əhəmiyyətli dərəcədə artıracaq.

**Ramid İbrahimov,**
**www.bakivaxti.az**

## BTC ilə Türkiyə ərazisindən nəql edilən neftin həcmi açıqlanıb



Bu ilin yanvar-iyun aylarında Türkiyə ərazisi ilə Bakı-Tbilisi-Ceyhan (BTC) kəməri vasitəsilə 113 713 min barel neft nəql edilib ki, bu da illik müqayisədə 6.16% çoxdur.

Bu barədə Türkiyənin borularla nəqletmə operatoru olan "BOTAŞ" şirkətinin məlumatında bildirilir. Məlumata görə, ötən ilin müvafiq dövründə BTC kəmərilə Türkiyə ərazisilə 107 117 89 452 min barel neft nəql edilib. Qeyd edək ki, 2022-ci ildə Türkiyə ərazisi ilə BTC kəməri vasitəsilə 225 445 min barel neft nəql edilib ki, bu da illik müqayisədə 12.64% çoxdur. Xatırladaq ki, BTC kəməri ilə Azərbaycanın "Azəri-Çıraq-Günəşli" yataqlarından hasil edilən neft idxal edilir. Bundan başqa, kəmər vasitəsilə digər istehsalçıların nefti də Türkiyə ərazisinə göndərilir.

## Nəqliyyat vasitələrinin parklanması üçün ödənişlər tətbiq olunacaq

Nəqliyyat vasitələrinin parklanması üçün saat 22:00-dan saat 07:00-dək, eləcə də həftənin bazar günləri ödəniş tələb olunmayacaq.

Bu, Nazirlər Kabinetinin 25 iyun 2023-cü il tarixli qərarı ilə təsdiqlənən "Nəqliyyat vasitələrinin parklanmasına görə ödənişin məbləği"ndə əksini tapıb.

Eyni zamanda, nəqliyyat vasitəsi 15 dəqiqədən artıq parklandıqda ödəniş tam məbləğdə hesablanacaq. Fərdi parklanma talonu verilmiş şəxslər nəqliyyat vasitələrini yalnız talonda göstərilən parklanma ərazisində müəyyən olunmuş yerlərdə ödənişsiz əsaslarla saxlayacaqlar.

Qeyd edək ki, qərar dövlət avtomobil yollarında təşkil edilmiş parklanma yerlərinə şamil edilir.

"Nəqliyyat vasitələrinin parklanmasına görə ödənişin məbləği" yalnız dövlətə məxsus parkinqlərdə qüvvədə olacaq. Avtomobillərin parklanmasına görə maliyyə dövriyyəsinin şəffaflaşdırılması, rəqəmsallaşmanın və istifadə rahatlığının təmin edilməsi məqsədilə ödənişlərin yalnız nağdsız qaydada həyata keçirilməsi nəzərdə tutulur.



# İstehlakçılara 65 mln. manatdan çox ƏDV geri qaytarılıb



ƏDV-nin geri qaytarılması çox ciddi məsələlərdən biridir və son vaxtlar öz müsbət nəticələrini göstərir.
2023-cü ilin yanvar-iyun ayları ərzində fiziki şəxs olan istehlakçılar tərəfindən ölkə ərazisində pərakəndə ticarət, ictimai iaşə və tibbi fəaliyyət göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla) və göstərilən xidmətlərə görə ödənilmiş ƏDV-nin 65.2 milyon manatı geri qaytarılıb.
Alınmış mallara və əldə edilmiş xidmətlərə görə ödəniş nağdsız həyata keçirildikdə ƏDV-nin 17.5%-i, nağd qaydada olduqda isə 5%-i istehlakçılara qaytarılır.

# Mərkəzi Bankın son qərarı kredit faizlərinə necə təsir edəcək?

"Mərkəzi Bank pul siyasətinə dəyişikliklər edərək məcburi ehtiyat normalarının diferensiallaşdırılması qaydasına yenidən baxıb. Qeyd edək ki, məcburi ehtiyat normalarının diferensiallaşdırılması Mərkəzi Bankın yeni sədrinin Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində ilk görüşü zamanı müzakirə edilən məsələlərdən idi". Bu barədə iqtisadçı-ekspert Vüqar Bayramov deyib.
Yeni qaydalara əsasən milli valyutada hüquqi şəxslərin depozitlərinin məbləğinin bir milyard manatını, xarici valyutada hüquqi şəxslərin depozitlərinin məbləğinin isə yeddi yüz əlli milyon manat ekvivalentini üstələyən banklar üzrə məcburi ehtiyat normaları bütün öhdəliklər üzrə müvafiq olaraq 10% və 12% səviyyəsində müəyyən olunacaq. Bu məbləğlərdən az olan öhdəliklər üzrə isə uyğun olaraq 5% və 6% səviyyəsində saxlanılır. Praktik olaraq, son normalar Mərkəzi Bankın 9 yanvar 2023-cü il qərarında nəzərdə tutulanlardan fərqlənmir. Həmin qərarla da diferensial normalar müəyyənləşmişdir.
Soununcu qərarla həmçinin Mərkəzi Bank faiz dəhlizinin maliyyə sektorunda digər faizlərə təsirlərini gücləndirmək məqsədi ilə sterilizasiya yönümlü daimi imkan aləti üzrə günlük limiti gələn ayın 15-dən etibarən ləğv edir. Mərkəzi Bank bu addımı banklararası bazarda fəallığın və bankların likvidlik mövqeyinin əhəmiyyətli dəyişməsi ilə izah edir. Mərkəzi Bankın son qərarının kredit faizlərinə xüsusi təsir edəcəyi gözlənilmir.
Belə ki, diferensial normalar praktik olaraq dəyişdirilmir və günlük limitin ləğvi isə daha çox likvidliyinin idarə edilməsi ilə bağlıdır. Mərkəzi Bankın uçot dərəcəsinin banklararası bazarda əməliyyatlara təsiri olsa da, onun kredit faizlərinə xüsusi təsiri hiss olunmur. Bu baxımdan da kredit bazarına təsir edəcək digər alətlərdən daha fəal istifadəyə ehtiyac var.

# Ağdam Sənaye Parkında daha bir şirkətə rezident statusu verilib – qazbeton blok istehsal edəcək

"Eos Qrup" MMC-yə Ağdam Sənaye Parkının rezidenti statusu verilib.
Bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov məlumat verib.
Bununla da rezidentlərin sayı 18-ə çatıb.
Şirkət tərəfindən Sənaye Parkının ərazisində investisiya həcmi 7 mln. manat olan qazbeton blok istehsalı müəssisəsi yaradılacaq. Bildirilib ki, 49 nəfər işlə təmin ediləcək.



# Tonlarla pomidor sahələrdə qalıb çürüyür

Söhbət Masallı rayonunun Sərçuvar və Viləş kəndlərindən gedir. Bu kəndlərdə fermerlər sahələrdən yaxşı, bol məhsul əldə etdikləri, məhsulun satışının isə zəif olduğunu bildiriblər: "Hazırda pomidorun 30 kiloqramlıq yeşiyi üç manata satılır.
Kiloqramını 10 qəpiyə satsaq da, alan yoxdur".
Onlar bildiriblər ki, havaların qeyri-sabit keçdiyi vaxtlarda



yağıntının çox olması da pomidora xeyli ziyan vurub. Masallı Dövlət Aqrar İnkişaf Mərkəzindən məsələ ilə bağlı bildirilib ki, problemin yaranmasına əsas səbəb rayon ərazisində saxlama kameralarının, eləcə də kombinatın olmamasıdır.
Qeyd edilib ki, rayonda 2023-cü ildə 535 hektar ərazidə pomidor əkilib. Bu da keçən ilə nisbətən 10,5 hektar çoxdur.

# AQTA restoranlardakı yoxlamaların nəticəsini açıqlayıb

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən bu ilin 6 ayı ərzində ölkə ərazisində fəaliyyət göstərən ictimai iaşə müəssisələrində aparılan yoxlama və monitorinqlərin nəticəsi açıqlanıb.



Banker.az xəbər verir ki, AQTA-dan verilən məlumata görə, qeyd olunan dövrdə 346-sı planlı, 176-sı plandankənar olmaqla, 522 ictimai iaşə müəssisəsində yoxlama keçirilib.
Yoxlamalar zamanı 466 sahibkarlıq subyektində nöqsan aşkar edilib. Aşkar edilmiş nöqsanlarla bağlı 466 sahibkarlıq subyekti barəsində Agentlik tərəfindən inzibati məsuliyyət tədbirləri görülüb. 85 müəssisədə malın (mal partiyasının) satışının dayandırılması və qadağan edilməsi, 166 müəssisədə işçi personalının üzvünün (üzvlərinin) kənarlaşdırılması barədə məhdudlaşdırıcı qərar verilib. Yoxlamalar zamanı 56 müəssisədə isə nöqsan aşkar olunmayıb.

# Azərbaycanda 1 mlrd. kubmetrdən çox su itkiyə gedib

Bu ilin yanvar-iyun aylarında Azərbaycanda su mənbələrindən 4.9 milyard kubmetr su götürülüb, bundan əkin sahələrinə 3.6 milyard kubmetr suyun verilməsi təmin edilib.
Bu barədə "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-dən bildirilib. Beləliklə, götürülən suyun 1.3 milyard kubmetri və ya 26.5%-i itkiyə gedib.
"Su itkisinə qarşı görülən tədbirlər çərçivəsində hesabat dövründə suvarma sistemlərində və kollektor-drenaj şəbəkələrində 17.58 milyon kubmetr həcmində lildən təmizləmə işləri həyata keçirilib. Eyni zamanda, çay məcralarında 4.173 milyon kubmetr həcmində məcratəmizləmə və tənzimləmə, o cümlədən bəndlərin yüksəldilməsi və möhkəmləndirilməsi üzrə 2.924 min kubmetr həcmində torpaq işləri görülüb, sahilbərkitmə tədbirləri üzrə 1 883 pm uzunluğunda mühafizə bəndləri tikilib.
6 ay ərzində həyata keçirilən meliorativ tədbirlər nəticəsində 1.3 min hektar yeni suvarılan torpaq sahəsi əkin dövriyyəsinə əlavə edilib, 800 hektar torpaq sahəsinin meliorativ vəziyyəti yaxşılaşdırılıb", – ASC-dən bildirilib.

# Gəncədə dağıdılmış evlər və obyektlər yenidən inşa edilir



Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ərazi Tikinti-Planlaşdırma Mərkəzi "Conco" QSC ilə müqavilə bağlayıb.
Banker.az xəbər verir ki, müqavilədə Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikası ərazisinə təcavüzü nəticəsində Gəncə şəhərində dağıdılmış, qəzalı vəziyyətə düşmüş, təmir və bərpaya ehtiyacı olan fərdi yaşayış evləri və qeyri-yaşayış obyektlərinin tikintisi, təmiri və bərpası işlərinin satınalınması nəzərdə tutulur.
Müqavilənin dəyəri isə 2 milyon manatdır.
"CONCO" QSC Azərbaycan tikinti sektorunda 2015-ci ilin mart ayından fəaliyyətə başlayıb.

# Qubad İbadoğlu həbs olunub



İyulun 23-də saxlanılan Qubad İbadoğlu barəsində həbs qətimkan tədbiri seçilib.
Nərimanov rayon məhkəməsində hakim Vüsal Qurbanovun sədrliyi ilə keçirilən prosesdə müstəntiqin verdiyi vəsatət təmin edilib və Qubad İbadoğlu barəsində 3 ay 26 gün müddətinə həbs qətimkan tədbiri seçilib.
Qubad İbadoğluya Cinayət Məcəlləsinin 204.3.1 (saxta pul və ya qiymətli kağızlar hazırlama, əldə etmə və ya satma mütəşəkkil dəstə tərəfindən törədildikdə) maddəsi ilə ittiham verilib və o, təqsirləndirilən şəxs qismində cəlb edilib.

# Pakistanla Azərbaycan mayeləşdirilmiş təbii qazla bağlı tarixi saziş imzalayacaqlar

İyulun 24-də Pakistan və Azərbaycan mayeləşdirilmiş təbii qazla (LNG) bağlı tarixi saziş imzalayıblar.
Bu barədə Pakistanın neft üzrə dövlət naziri Musadik Malik Kəraçidə deyib.
Musadik Malik bildirib ki, Pakistan hər ay Azərbaycandan maye qaz alacaq. Nazir Azərbaycandan 12 tanker maye qaz alınacağını da əlavə edib. Pakistanın neft üzrə dövlət naziri daha əvvəl qeyd edib ki, Azərbaycanla müqavilə qışda ölkəsinin qaz çatışmazlığına son qoymağa yardımçı olacaq. "Azərbaycanla müqavilə ölkəmizin qışda qaz çatışmazlığına son qoymağa kömək edəcək", – nazir vurğulayıb.

# "Kembric" məzunu 2 milyonluq dələduzluqda təqsirli bilinir

Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluq etməkdə ittiham olunan şəxsin məhkəməsi yekunlaşıb.
1990-cı il təvəllüdlü Fərhad Əliyev Cinayət Məcəlləsinin 178.4-cü (Dələduzluq - xüsusilə külli miqdarda) maddəsi ilə təqsirli bilinib. Məhkəmənin hökmü ilə ona 10 il 6 ay müddətinə həbs cəzası verilib.
Bildirilib ki, İngiltərədə 2010-2014-cü illərdə "Kembric" universitetində ali təhsil almış Fərhad Əliyev Bakıya qayıdandan sonra özəl şirkət yaradıb. O, daha sonra "Formula-1 Qran Pri" yarışlarında "VİP" zonalara biletlərin alınıb-satılması həyata keçirdiyini və bununla yüksək gəlir əldə etdiyini yalandan bildirərək bir neçə nəfəri aldadıb. Belə ki, F.Əliyev onlara bu işə sərmayə yatırımından sonra birlikdə daha yüksək məbləğdə gəlir əldə edəcəklərini yalandan vəd edib, həmin işə sərmayə qoymağa inandırıb. Bu yolla Fərhad tanışı olan şirkət rəhbəri Sərxan



Məmmədovdan 2018-ci ildən etibarən hissə-hissə 1 milyon 153 min 263 min manat alıb. Eyni yolla 3 nəfərdən müvafiq olaraq 232.050, 187.102 və 51.000 manat alıb. Həmin şəxslər Fərhadın yüksək səviyyəli ali təhsil alması, xaricdə yaxşı əlaqələrinin olmasını və sair amilləri nəzərə alaraq ona inanıb pulları verdiklərini deyiblər. Pulların böyük hissəsi dollarla verilib.
Məhkəmə zərərçəkmiş şəxslərin F.Əliyevə qarşı mülki iddialarını da təmin edib.

**www.banker.az**

# "Azərbaycan qeyri-neft ixracını 20.6% artırıb"

"Qeyri-neft sektorunun ixrac imkanlarının artırılması istiqamətində həyata keçirilən tədbirlər davam edir". Bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov tvitter hesabında paylaşım edib.
Nazir qeyd edib ki, bu ilin yanvar-iyun aylarında qeyri-neft məhsullarının ixracı əvvəlki ilin müvafiq dövrünə nisbətən 20,6% artaraq 1 milyard 773,3 milyon dollar təşkil edib.



# Azərbaycanın sığorta bazarı 32% böyüyüb



2023-cü ilin yanvar-iyun ayında Azərbaycanda sığorta yığımlarının həcmi 648 milyon 945 min manat təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 32% çoxdur.
Sığorta şirkətlərinin etdiyi ödənişlərin həcmi isə 225 milyon 32 min manat olub ki, bu da 29% artım deməkdir.
Ötən ilin eyni dövründə sığorta yığımlarının həcmi 491 milyon 605 min manat, sığorta ödənişlərinin həcmi isə 174 milyon 923 min manat olub.

# «Azərbaycan sığorta sektorunun inkişafı baxımından əksər ölkələrdən geri qalır»

Bunu Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri Zahid Oruc Bakıda keçirilən «Sığorta mübahisələrinin uğurlu həll yolları» mövzusunda elmi-praktik konfransda bildirib.
Onun sözlərinə görə, 2022-ci ildə Azərbaycanda sığorta bazarı ümumi daxili məhsulda (ÜDM) cəmi 0,7% paya malik olub, bu isə 2021-ci ilə nisbətən 0,2% azdır.
*«Halbuki, ötən il Avropa ölkələrində bu nisbət orta hesabla 3,9% təşkil edib. Başqa sözlə, Azərbaycan Avropa ölkələrindən 5 dəfədən çox geri qalır. Hətta Gürcüstan sığorta sektorunun inkişafına görə Azərbaycandan öndədir. 2022-ci ildə Gürcüstanda sığorta haqları ÜDM-in 1,3%-i, Ermənistanda isə ÜDM-in 0,7%-i qədər olub»*, - deyə Z.Oruc qeyd edib.
Bundan başqa, sədr deyib ki, sığortanın inkişafı xüsusilə kənd təsərrüfatının inkişafı üçün vacibdir.
*«Sığortanın inkişafında mühüm məsələlərdən biri sığorta məhsullarının sayının artırılmasıdır. Bu baxımdan «Aqrar sığorta haqqında» qanunun qəbulu önəmlidir. Belə ki, məşğul əhalinin təxminən 40%-i kənd təsərrüfatı sahəsində çalışır, həm fermerlər, həm də sığorta şirkətləri üçün maraqlı və cəlbedici sığorta modeli olmalıdır»*.
Onun sözlərinə görə, sığortalanma təşəbbüsü iqtisadiyyatın bir sahəsini deyil, bütün sahələrini əhatə etməli, bunun üçün proqramlar hazırlanmalıdır: *«Xüsusilə, xidmət, turizm, idman və sair sahələrdə fəaliyyət göstərən subyektlərin sığortaya cəlb edilməsi bazarda dinamikanı artırar»*.

# Daşınmaz əmlakın icbari sığortası bazarı böyüyüb

Bu ilin yanvar-iyun aylarında Azərbaycanda daşınmaz əmlakın icbari sığortası üzrə 56 milyon 111 min manat sığorta haqqı toplanılıb.
Bu barədə Banker.az-a Azərbaycan Mərkəzi Bankından bildirilib. 2022-ci ilin 6 ayında isə daşınmaz əmlakın icbari sığortası üzrə 35 milyon 321 min manat yığım edilib. Məlumata görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 59% çoxdur.
Son 1 ildə bu sığorta növü üzrə sığorta ödənişi isə 4 dəfə artaraq 2 milyon 178 min manat olub.

# Həyat sığortası bazarı 2023-cü ildə 40% böyüyüb

Azərbaycanda həyat sığortası bazarı 2023-cü ilin ilk 6 ayında 288.78 mln. manata yüksəlib.
Banker.az Azərbaycan Mərkəzi Bankına istinadən xəbər verir ki, bu da illik müqayisədə 83.23 mln. manat və ya 40% artım deməkdir.
Sığorta ödənişlərinin həcmi illik 44.28 mln. manat və ya 53% artaraq 127.28 mln. manat olub.
Həyat sığortası yığımları ilə ödənişlər arasındakı fərq 2022-ci ilin ilk 6 ayında 122.55 mln. manat olduğu halda, 2023-cü ilin eyni müddətinə 161.5 mln. manata düşüb.
Könüllü həyat sığortasının 273.66 mln. manatı həyatın yaşam sığortası olub. Bu 2022-ci illə müqayisədə 43% artım deməkdir.



# Azərbaycanda taksi fəaliyyəti göstərənlər üçün yeni tələblər

Azərbaycan Prezidenti İlham Əliyev "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Qanunun tətbiqi haqqında fərman imzalayıb.
Bundan sonra avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları sahəsində lisenziya kartı almaq üçün həmin nəqliyyat vasitəsi həmçinin Azərbaycanın dövlət standartları ilə müəyyənləşdirilmiş tələblərə cavab verməlidir.
Bundan başqa, müvafiq lisenziya kartının alınması üçün həmin nəqliyyat vasitəsinin Azərbaycanın dövlət standartları ilə müəyyən edilmiş istismar müddəti tələblərinə cavab verdiyini təsdiq edən avtonəqliyyat vasitələrinin buraxılış ili haqda sənədi olmalıdır.
Dəyişikliyə əsasən, taksi fəaliyyəti üçün taksometrin metroloji yoxlamadan keçməsini təsdiqləyən şəhadətnamə isə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən veriləcək.
Tələbləri yerinə yetirəcək şəxslərə veriləcək lisenziya kartı isə daşıyıcının həmin avtonəqliyyat vasitəsi ilə sərnişin və yük daşımaq üçün xüsusi razılığa (lisenziyaya) malik olduğunu təsdiq edir və müvafiq xüsusi razılıq (lisenziya) verilərkən təqdim edilir.
Digər bir yenilik isə ondan ibarətdir ki, taksi minik avtomobilləri ilə sərnişin daşımaları həyata keçirən şəxslər rüblük texniki, istismar, təhlükəsizlik və ekoloji tələblərə uyğunluğun yoxlanılması prosedurundan azad edilirlər. Bu, digər nəqliyyat vasitələri ilə sərnişin və yük daşımaları həyata keçirən şəxslərə aid deyil.
Qanuna edilmiş dəyişikliyə əsasən, taksi minik avtomobilləri ilə sərnişin daşımalarına xüsusi razılıq (lisenziya) verilərkən və həmin avtomobillərlə sərnişin daşımalarının həyata keçirilməsi zamanı avtonəqliyyat vasitəsinin texniki, istismar, təhlükəsizlik və ekoloji tələblərə uyğunluğu "Yol hərəkəti haqqında" Qanun ilə müəyyən edilmiş qaydada verilən nəqliyyat vasitəsinin texniki baxış talonu ilə müəyyən ediləcək.

# Bank Respublika artım nümayiş etdirib

Ölkənin ən böyük banklarından biri olan Bank Respublika 2023-cü ilin birinci yarımilliyinin yekunlarına dair maliyyə göstəricilərini açıqlayıb. Hesabata əsasən, Bank özünün inkişaf tempini daha da sürətləndirmiş və ölkənin bank xidmətləri bazarında lider mövqelərini möhkəmləndirmişdir.
2022-ci ilin ikinci rübü ilə müqayisədə bankın aktivləri 24% artaraq 1,71 milyard manat təşkil edib ki, bu da ölkə bankları arasında ən yüksək göstəricilərdən biridir. Açıqlanmış hesabatdan həmçinin görünür ki, bank davamlı inkişaf üçün kifayət qədər yüksək kapital ehtiyatına malikdir. Belə ki, Bankın məcmu kapitalı 32% artaraq 141,4 milyon manat olmuş və minimum məcmu kapital normasını 2,8 dəfə üstələmişdir.
Ötən ilin analoji dövrü ilə müqayisədə Bankın faiz gəlirləri 37%-dən çox artaraq 53,39 milyon manata, xalis əməliyyat mənfəəti təxminən 2 dəfə artaraq 21,9 milyon manata, xalis mənfəəti isə 41% artaraq 17,59 milyon manata çatıb.
Bankın depozit portfeli də stabil artım nümayiş etdirir ki, bu da müştərilərin banka inamının yüksək səviyyəsinin göstəricisidir. Belə ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə bankın depozit portfeli 30,1% artaraq 1,06 milyard manat təşkil edib.
Bank Respublika 1992-ci ildə




yaradılıb və Azərbaycanın aparıcı beş bankından biridir. Bankın səhmdarları arasında Almaniyanın ən böyük maliyyə qurumlarından biri olan – Sparkassen International Development Trust (Sparkassen-Finanzgruppe maliyyə qrupunun üzvü) var. Bank Azərbaycanın bank sektorunda ən yüksək beynəlxalq reytinqlərdən birinə – "Müsbət" proqnozlu "B3" reytinqinə (Moody's) malikdir.

# Azərbaycanın bank sektoru ilk yarımildə 563.3 mln. AZN xalis mənfəət əldə edib

| Mənfəət və zərər maddələri | 12/31/2021 | 6/30/2022 | 7/31/2022 | 8/31/2022 | 9/30/2022 | 10/31/2022 | 11/30/2022 | 12/31/2022 | 01/31/2023 | 02/28/2023 | 03/31/2023 | 04/30/2023 | 05/31/2023 | 06/30/2023 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1. Faiz və gəlirlərin bu qəbildən olan növləri | 2,107.0 | 1,258.0 | 1,484.8 | 1,715.8 | 1,956.6 | 2,211.5 | 2,470.3 | 2,738.8 | 273.6 | 549.6 | 827.4 | 1,097.1 | 1,385.9 | 1,668.7 |
| 1.1 kreditlər üzrə | 1,708.1 | 1,036.3 | 1,220.9 | 1,408.6 | 1,597.3 | 1,795.6 | 1,993.3 | 2,194.4 | 199.9 | 404.8 | 610.4 | 810.0 | 1,020.9 | 1,234.7 |
| -faiz borcları üzrə yaradılmış məqsədli ehtiyatlar | 31.1 | 22.1 | 27.7 | 35.1 | 37.1 | 41.5 | 43.5 | 40.5 | 5.8 | 12.4 | 17.5 | 22.6 | 26.5 | 28.7 |
| 1.2 maliyyə sektorunda yerləşdirilmiş vəsaitlər üzrə | 137.7 | 71.8 | 86.7 | 103.9 | 125.6 | 150.0 | 175.6 | 202.7 | 26.5 | 52.3 | 79.4 | 106.4 | 137.0 | 164.4 |
| 1.3 qiymətli kağızları üzrə | 233.9 | 129.8 | 151.5 | 173.5 | 196.2 | 220.5 | 246.2 | 275.1 | 34.6 | 67.0 | 101.4 | 133.2 | 167.7 | 200.3 |
| 1.4 digər faiz gəliri üzrə | 27.2 | 20.1 | 25.6 | 29.8 | 37.4 | 45.4 | 55.2 | 66.6 | 12.6 | 25.4 | 36.2 | 47.5 | 60.3 | 69.4 |
| 2. Faiz və onlara bağlı xərclər | 538.4 | 297.6 | 352.6 | 409.8 | 467.4 | 528.7 | 592.8 | 657.8 | 67.2 | 134.0 | 200.3 | 268.4 | 335.2 | 405.5 |
| 2.1 depozitlər üzrə faizlər | 362.3 | 205.9 | 245.0 | 284.6 | 324.4 | 367.6 | 412.6 | 459.0 | 48.0 | 96.3 | 142.8 | 190.5 | 237.8 | 288.5 |
| -o cümlədən müddətli depozitlər üzrə | 349.5 | 193.6 | 229.5 | 265.7 | 302.0 | 339.8 | 378.7 | 418.7 | 37.7 | 76.0 | 115.6 | 155.7 | 196.3 | 239.1 |
| 2.2 maliyyə sektorundan cəlb edilmiş vəsaitlər üzrə | 96.9 | 54.9 | 65.3 | 76.2 | 88.2 | 99.3 | 110.5 | 122.2 | 12.3 | 24.1 | 36.7 | 49.9 | 62.8 | 75.1 |
| 2.3 digər xərclər üzrə | 79.3 | 36.8 | 42.3 | 49.0 | 54.9 | 61.8 | 69.7 | 76.6 | 6.9 | 13.7 | 20.8 | 28.0 | 34.6 | 41.9 |
| 3. Xalis faiz gəliri (zərəri) | 1,537.5 | 938.2 | 1,104.5 | 1,270.9 | 1,452.1 | 1,641.2 | 1,833.9 | 2,040.6 | 200.6 | 403.1 | 609.6 | 806.2 | 1,024.2 | 1,234.4 |

Azərbaycanın 24 bankı ümumilikdə 2023-cü ilin ilk yarısında 1 mlrd. 668.7 mln. manat faiz gəliri və 598.5 mln. manat qeyri-faiz gəlirinə qarşı 563.3 mln. manat xalis mənfəət əldə edib.
Bu barədə Mərkəzi Bankın 30 iyun 2023-cü il tarixinə təqdim etdiyi aylıq icmal göstəricilərində bildirilir.
Bankların faiz gəlirləri illik müqayisədə 33% artarkən, qeyri-faiz gəlirləri 12% artmış olub. Faiz xərcləri illik 36% artımla 405.5 mln. manata, qeyri-faiz xərcləri isə 23% artaraq 1 mlrd. 60.6 mln. manata yüksəlib. Bank sektorunun əməliyyat mənfəəti 772.3 mln. manat təşkil edib. 2022-ci ilin eyni dövründə 614.3 mln. manat idi.
Beləliklə, sektor 131.3 mln. manatlıq mənfəət vergisindən sonra 563.3 mln. manatlıq xalis mənfəət əldə edib.

# "Yapı Kredi Bank Azərbaycan"ın mənfəəti artıb

"Yapı Kredi Bank Azərbaycan" QSC 2023-cü ilin birinci yarısını (yanvar-iyun) 3 milyon 604 min manat xalis mənfəət ilə başa vurub. Bank ötən ilin eyni dövrünü 1 milyon 361 min manat xalis mənfəət ilə bağlamışdı. Beləliklə, "Yapı Kredi Bank Azərbaycan"ın xalis mənfəəti 2023-cü ilin birinci yarısında 2022-ci ilin birinci yarısı ilə müqayisədə 2 milyon 243 min manat və ya 2,6 dəfə artıb. Xalis mənfəətin artması gəlirlərin artmasından qaynaqlanır.
"Yapı Kredi Bank Azərbaycan"ın faiz gəlirləri 2023-cü ilin birinci yarısında 2022-ci ilin birinci yarısı ilə müqayisədə 5 milyon 3 min manat və ya 41,3% artaraq 17 milyon 124 min manat, qeyri-faiz gəlirləri isə 951 min manat və ya 11,3% artaraq 9 milyon 332 min manat təşkil edib.
2023-cü ilin ilk 1-ci yarısında "Yapı Kredi Bank Azərbaycan"ın cəmi əməliyyat gəlirləri (faiz və qeyri-faiz gəlirləri) 26 milyon 456 min manat, cəmi əməliyyat xərcləri (faiz və qeyri-faiz xərcləri) 19 milyon 344 min manat, gəlirlər xərcləri üstələdiyindən əməliyyat mənfəəti 7 milyon 112 min manat təşkil edib. Bank əməliyyat mənfəətindən mümkün zərərlər üçün yaradılan ehtiyatlara 2 milyon 276 min manat ayırıb və 1 milyon 230 min manat mənfəət vergisi ödəyib.
2023-cü ilin yanvar-iyun dövründə Bankın kredit portfeli (müştərilərə verilmiş kreditlər) 6% və ya 14 milyon 335 min manat artaraq 251 milyon 279 min manata çatıb.
Xatırladaq ki, "Yapı Kredi Bank Azərbaycan" müştərilərinə bankçılığın Pərakəndə və Korporativ sahələrində məhsullar təklif etməkdədir. Səhmdarları Türkiyənin ən nüfuzlu holdingi - "Koç Group" olan "Yapı Kredi Bank Azərbaycan" QSC-nin əsas məqsədi mövcud olan qlobal bankçılıq təcrübəsini Azərbaycan vətəndaşlarının istək və tələblərinə uyğun olaraq təkmilləşdirib, ölkənin Bankçılıq sektoruna öz töhfələrini verməkdir.

# Bank kartlarının sayı kəskin artıb

Banklar və "Azərpoçt" MMC sistemləri üzrə dövriyyədə olan ödəniş kartlarının sayı iyun ayının sonunda ötən aya nəzərən 299 min ədəd artaraq 15 milyon 40 min ədəd təşkil edib. Banker.az Mərkəzi Banka istinadən xəbər verir ki, keçən ilin müvafiq dövrü ilə müqayisədə bu göstərici 18.8% artıb.
Ödəniş kartlarında artım debet kartları üzrə 17.7%, kredit kartları üzrə 26.3% təşkil etmişdir. Ötən ilin müvafiq dövrünə nəzərən əmək haqqı kartlarının sayı 107 min, kredit kartları 421 min, digər kartlar isə 1.7 mln. ədəd artıb.
Belə ki, ölkədaxili nağdsız əməliyyatların həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 1.8 dəfə artmışdır. 2023-ci ilin iyun ayı ərzində kartlar vasitəsilə həyata keçirilən nağdsız ödənişlərin həcmi 3625 mln. manat təşkil edib. Həyata keçirilən nağdsız ödənişlərin 2867 mln. manatı elektron ticarətin payına düşür. Qalan məbləğin 751 mln. manatı POS-terminallar, 6 mln. manatı isə özünə xidmət terminalları vasitəsilə gerçəkləşdirilmişdir. İlin əvvəlindən ödəniş kartları ilə nağdsız ölkədaxili əməliyyatların həcmi ölkədaxili kart əməliyyatlarının 52.3%-ni təşkil edib.

# KOB subyektləri ilə görüş keçirilib

*19 iyul 2023-cü il tarixində Ağsu rayonunda KOBİA-nın qrant dəstəyi ilə həyata keçirilən "Mikro, kiçik və orta biznesin Dağlıq Şirvan iqtisadi rayonunun inkişafında rolunun artırılması" layihəsinin icrası çərçivəsində KOBİA-nın regional koordinatoru və Ağsu rayonunun KOB dostlarının dəstəyindən yararlanmaqla yerli sahibkarlarla görüş keçirilmişdir. Görüşdə habelə rayon icra hakimiyyətinin məsul şəxsləri iştirak etmişlər.*





Layihənin icraçıları qismində görüşdə akademik **Ziyad Səmədzadə, professor Rəsul Balayev və Maqsud Quliyev** iştirak etmişlər. Onlar tərəfindən mikro, kiçik və orta biznes amilinin iqtisadi rayonun inkişaf potensialının yüksəldilməsi imkanlarının tədqiqi və həmin imkanların reallaşdırılması barədə təkliflərin əsaslandırılmasının zəruriliyi, sahibkarlıq amilinin tarazlı və dinamik regional inkişafda artan rolu barədə müxtəsər məlumat verilmişdir.

Layihənin keçirilməsində məqsəd Dağlıq Şirvan iqtisadi rayonunun dinamik sosial-iqtisadi inkişafında KOB-un rolunun artırılması imkanlarının aşkar edilməsi və həmin imkanların reallaşdırılması üzrə istiqamət və vasitələrin müəyyən edilməsidir. Eyni zamanda, iqtisadi rayonda KOB-un inkişafı və təşviqi üzrə təklif və tövsiyələrin hazırlanması, onların həyata keçirilməsi imkanlarının qiymətləndirilməsi nəzərdə tutulur.

*Layihənin məqsədinə nail olmaq üçün Dağlıq Şirvan iqtisadi rayonunun sosial-iqtisadi inkişafının tarazlıq və dayanıqlılıq meyarları baxımından qiymətləndirilməsi; iqtisadi rayonda KOB-un inkişaf səviyyəsinin qiymətləndirilməsi; Dağlıq Şirvan iqtisadi rayonuna daxil olan Şamaxı, İsmayıllı, Qobustan və Ağsu inzibati rayonlarında KOB-un təşviqi üzrə əldə edilən nəticələrin səciyyələndirilməsi; Şamaxı, İsmayıllı, Qobustan və Ağsu inzibati rayonlarında KOB-un inkişafı imkanlarının aşkar edilməsi və onların reallaşdırılması yollarının müəyyən olunması nəzərdə tutulur.*

Layihə bütövlükdə respublika üzrə KOB subyektlərinin inkişaf strategiyasının təkmilləşdirilməsinə töhfə verəcəkdir. Layihədən Dağlıq Şirvan iqtisadi rayonuna daxil olan inzibati rayonların KOB subyektləri faydalanacaqdır.

Qeyd edək ki, "Mikro, kiçik və orta biznesin Dağlıq Şirvan iqtisadi rayonunun inkişafında rolunun artırılması" layihəsi Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən qrant vəsaiti hesabına maliyyələşdirilir.

Tədbirdə iştirak edən sahibkarlar, o cümlədən **"Azqranata" MMC-dən Cabbar Məmmədov, "Buta" marketdən Asəf Babaşov, "Sanif" marketdən Sanif Həsənov və "Sünbül" MMC-dən İlham Mirzəyev mikro, kiçik və orta biznesin istifadə edilməmiş potensialı, mövcud problemlər və onların həlli istiqamətləri barədə mülahizələrini bildirmişlər.** Onlar ölkə başçısı cənab İlham Əliyevin sahibkarlara daimi qayğısından, Dağlıq Şirvan iqtisadi rayonunda mikro, kiçik və orta biznesə göstərilən dövlət dəstəyindən razılıqla danışmışlar. Xüsusi olaraq qeyd edilmişdir ki, rayonun bütün ərazisi fasiləsiz olaraq elektrik enerjisi və təbii qazla təmin edilir. Yolların təmiri və yeni yolların çəkilməsi sahibkarların iqtisadi fəallığı üçün əlverişli şərait yaradır.

*Bir sıra sahibkarlıq subyektlərinin nümayəndələri son illər gördükəri işlər və əldə olunmuş nəticələr barədə danışmışlar. Onlar mikro, kiçik və orta biznesin inkişaf perspektivlərini şərtləndirən əsas amillər qismində, ilk növbədə biznesin maliyyəyə və hazır məhsulun bazarın müvafiq sektoruna çıxışının vəziyyətini qeyd etmişlər.*

Eyni zamanda, istehsal etdikləri məhsulların və göstərdikləri xidmətin dəyərində enerji daşıyıcılarının xüsusi çəkiyə malik olduğunu bildirmişlər. Dağlıq Şirvan iqtisadi rayonunun digər əraziləri kimi Ağsu rayonunda da su ilə təminatın yaxşılaşdırılması istiqamətində atılan addımlar qeyd olunmuşdur. Eyni zamanda, göstərilmişdir ki, aqrar sahibkarlıqda su təminatı ilə bağlı çətinliklər məhsuldarlığı azaldır və rentabelliyi aşağı salır.

Su təminatı nisbətən yaxşı olan Ərəbmehdibəy, Qasımbəyli və Yuxarı Şirvan kanalına yaxın bir sıra digər kəndlərdə kənd təsərrüfatı məhsulları istehsalının inkişafı üçün bazara çıxışın asanlaşdırılması mühüm əhəmiyyətə malikdir. Bu baxımdan, Ağsu rayonu ərazisində fəaliyyət göstərən supermarketlərin yerli sahibkarlardan məhsul alması vəziyyətinin yaxşılaşdırılmasına ehtiyac vardır.

Maliyyəyə çıxışın vəziyyətinə gəldikdə isə sahibkarlar Ağsu rayonunda bankların sayının az olmasını qeyd etmişlər. Onlar bildirmişlər ki, həmin bankların yerli biznesə güzəştli kreditlər (hazırda 5%-li) verməkdə kifayət qədər maraqlı olduğunu söyləmək çətindir.

2021-ci ilin iyul ayının 8-də ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) və KOBİA arasında mikro, kiçik və orta biznesin inkişafını dəstəkləmək məqsədilə anlaşma memorandumu imzalanmışdır. Bu əməkdaşlıq çərçivəsində Dağlıq Şirvan iqtisadi rayonuna daxil olan İsmayıllı rayonunda 2022-ci ildə 70 min ABŞ dolları məbləğində yardım ilə meyvə-tərəvəz emalı üzrə müəssisə yaradılmışdır. Burada əsasən qadınlar üçün yeni iş yerləri açılmışdır. Görüş iştirakçıları haqqında danışılan tərəfdaşlıq çərçivəsində Ağsu rayonunda süd emalı, Qobustanda yun emalı üzrə qadın assosiasiyaları yaratmağı məqsədəuyğun hesab etmişlər.

**Ağsu rayonunda quşçuluq fabrikləri fəaliyyət göstərmişdir. Yem bazasının vəziyyətini və təcrübəli mütəxəssislərin mövcudluğunu nəzərə alaraq, əvvəlki məkanlarda quşçuluq fabriklərini yenidən yaratmaq olar. Rayonda xalq sənətkarlığı sahələrində ənənələrin bərpası istiqamətində sahibkarlığın inkişafı baxımından böyük potensial mövcuddur. Rayonun Bico və Qəşət kəndlərində xalçaçılıq ənənələrini bərpa etmək mümkündür. Bununla da bir sıra kəndlərdə qadınlar üçün yeni iş yerləri yaratmaq olar.**

Sahibkarlar (Sanif Həsənov) bildirdilər ki, Bico və Qəşəd kəndlərində vaxtilə üzüm emalı zavodları fəaliyyət göstərmişdir. Onların bərpası üçün tədbirlər görülməli və ilk növbədə həmin kəndlərin su təminatı yaxşılaşdırılmalıdır. "Sünbül" İstehsal Kooperativinin nümayəndəsi (İsmayıl) taxılçılığın inkişafı istiqamətində gördükləri işlər barəsində danışaraq, məhsuldarlığın yüksəldilməsi baxımından su təminatının yaxşılaşdırılması məsələlərini önə çəkmişdir.

Ağsu rayonunda 130 mindən artıq qoyun bəslənir. Bildirildi ki, rayonda dəri qəbulu və emalı müəssisəsinin yaradılması ət kəsimi məntəqələrinin fəaliyyətinə nəzərəçarpacaq dərəcədə müsbət təsir edə bilər.

Aqrar sahibkarlar münasib, yəni kənd icmasının mənafeyinə toxunmayan örüş yerlərində əkin aparılması məqsədi ilə müvafiq normativ hüquqi bazanın təkmilləşdirilməsini arzu etdiklərini bildirdilər. Bu qəbildən yerli sahibkarların digər təklifi Ağsu rayon ərazisində mini soyuducu anbarların inşası ilə bağlı oldu. Qeyd edildi ki, kifayət qədər böyük bağı olan sahibkarlar həmin bağların ərazisində soyuducu anbarın inşasının sənədləşdirilməsində çətinlik çəkirlər.

Rayonda aqropark uğurla fəaliyyət göstərir. Burada süd və ət emalında istifadə edilən mütərəqqi texnologiyaların tətbiq dairəsinin genişləndirilməsi, aqroparkın yeni rezidentlərinin cəlb edilməsinin perspektivləri qeyd edildi.

**KOBİA-nın dəstəyi ilə İsmayıllı rayonunda turizm biznesi infrastrukturu inkişaf etdirilmişdir. Bu istiqamətdə Ağsu rayonunda da tədbirlərin həyata keçirilməsini arzu etdiklərini bildirdilər. Ağsu rayonu, o cümlədən Dilman, Kalva, habelə yol infrastrukturunun yaxşılaşdırılması davam etdirilərsə, Xatman və Hacıman kəndləri turizmin inkişafı baxımından əlverişli potensiala malikdir. Bununla belə, əsas nəqliyyat xətlərindən bir qədər kənarda olduğuna görə burada turizmin inkişaf imkanları istifadə edilməmiş qalır.**

KOBİA-nın Dağlıq Şirvan üzrə koordinatorunun sahibkarların maarifləndirilməsi üçün davamlı addımların atılmasının zəruriliyi, bu məqsədlə iqtisadi rayon ərazisində olan ali və orta ixtisas təhsili müəssisələrinin potensialından istifadənin məqsədəuyğun olması barədə fikri maraqla qarşılandı. Görüşdə həmçinin, yerli ali təhsilli kadrların əksəriyyətinin öz kəndlərinə dönməmələri, texniki peşə məktəblərinin açılması, torpaqların şoranlaşması məsələləri də müzakirə edildi.

Görüşdə "Azqranata" MMC-nin nümayəndəsi bildirdi ki, nar məhsulu həm yerli sahibkarlardan satın alınır, həm də öz bağlarımızdan əldə edilir. Hazırda öz nar və üzüm bağlarımızda çalışanlar da nəzərə alınmaqla müəssisənin 1128 işçisi var. Bu günlərdə kompota tələbin artması ilə əlaqədar daha 120 işçinin cəlb edilməsi planlaşdırılır.

# Xammal məhsullarının kompleks emalı səmərəli inkişaf yoludur

"Malların daxildə emalının xüsusi gömrük proseduru altında yerləşdirilməsi"nin sadələşdirilməsi ilə bağlı Nazirlər Kabinetinin qərarında edilən son dəyişikliklərlə bağlı sahibkarlar üçün görüş keçirilib.

Azərbaycan Sahibkarlar Konfederasiyasının vitse-prezidenti Vüqar Zeynalov bildirib ki, ölkəmizdə istehsal olunan məhsulların 60%-i xaricdən alınan xammala əsaslanır. *"Malların daxildə emalının xüsusi gömrük proseduru altında yerləşdirilməsi ilə bağlı yeniliklər ixracda Azərbaycan məhsullarının rəqabətədavamlı olmasına imkan verəcək. Həmçinin depozit tələbinin ləğv olunması sahibkarların dövriyyə vəsaiti ilə bağlı müəyyən çətinliklərini aradan qaldıracaq"*, – deyə V.Zeynalov vurğulayıb.



Görüşdə malların daxildə emalının xüsusi gömrük proseduru altında yerləşdirilməsi qaydaları, daxildə emalının xüsusi gömrük proseduruna icazənin verilməsi və müraciət prosedurları ilə bağlı təqdimatlar edilib və sahibkarları maraqlandıran suallar cavablandırılıb.

# Laçında yüksəksürətli internetə qoşulmaq mümkün olacaq

"Aztelekom" MMC tərəfindən Laçın şəhərində 800 evdə GPON texnologiyasının tətbiq olunması üçün layihə hazırlanıb, şəbəkə quraşdırılıb.

Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən məlumat verilib. Bildirilir ki, Laçın şəhəri ilə yanaşı, rayonun Zabux və Sus kəndləri də GPON (Gigabit Passive Optical Networks) texnologiyası əsasında layihələndirilib. İşlər tamamlandıqdan sonra Zabux kəndində 250, Sus kəndində 75 ev təsərrüfatı xidmətlərdən yararlana biləcək.

# "Dünyada elə bir ölkə yoxdur ki, Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımasın"

"Ermənistan hər zaman Azərbaycanın ərazi bütövlüyünü tanıyıb, lakin bu, heç də həmişə bəyan edilməyib və qeydə alınmayıb".

Bu barədə Ermənistanın Baş naziri Nikol Paşinyan keçirdiyi brifinqdə bildirib.

"Təəssüf hissi ilə bildirirəm ki, dünyada elə bir ölkə yoxdur ki, Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımasın", – o əlavə edib.

Paşinyan ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin nümayəndələrinin bəyanatlarını oxuyub. O, Azərbaycanın ərazi bütövlüyünün tanınması ilə bağlı Rusiya Prezidenti Vladimir Putinə, ATƏT-in Minsk qrupunun keçmiş fransalı həmsədri Stefan Viskontiya və ABŞ Dövlət Departamentinin insan hüquqlarına dair illik hesabatından sitatlara istinad edib.

"Separatçılar Ermənistanın köməyi ilə Dağlıq Qarabağın böyük hissəsini və Azərbaycanın daha 7 rayonunu nəzarətdə saxlamaqda davam edirlər", – deyə Paşinyan Dövlət Departamentinin hesabatlarından birindəki qeydi oxuyub.

# Azərbaycan "yaşıl enerji"nin ixracına dair üç ölkə ilə müştərək müəssisə yaradacaq

Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniyanın energetika nazirləri Xəzər dənizindən Avropaya "yaşıl enerji"nin ötürülməsi ilə bağlı birgə sənəd imzalayıblar. Bu barədə Azərbaycanın energetika naziri Pərviz Şahbazov "Twitter" hesabında bildirib.



"Buxarestdə Xəzərdən Avropaya "yaşıl enerji"nin ötürülməsini nəzərdə tutan layihənin həyata keçirilməsi üçün Gürcüstan, Rumıniya və Macarıstandan olan həmkarlarımla 4 ölkə arasında müştərək müəssisənin yaradılmasına dair Anlaşma Memorandumu imzaladıq", – nazir qeyd edib.

# «В отношениях Азербайджана с Центральноазиатскими странами наблюдается больше динамизма»



В прошлом и этом году я посетил все страны Центральной Азии. А лидеры этих стран посетили Азербайджан. Сейчас в наших двусторонних отношениях наблюдается больше динамизма.
Об этом сказал Президент Ильхам Алиев в интервью китайской медиакорпорации China Media Group.
Раскрывая причину, глава государства отметил: «Во-первых, потому что мы видим в этом необходимость, и у нас всегда были прекрасные отношения. В то же время вопрос транспортных маршрутов, так сказать, требует более активного взаимодействия. Так что я уверен, что когда мы посмотрим на статистику транзита через Каспий, то увидим, что цифры будут расти из года в год».

# SOCAR и MOL Group обсудили потенциальные возможности сотрудничества

25 июля 2023 года президент Государственной нефтяной компании Азербайджанской Республики (SOCAR) Ровшан Наджаф встретился с исполнительным вице-президентом по стратегическим операциям и корпоративному развитию, членом правления венгерской компании MOL Group Дьердем Бача.
На встрече было подчеркнуто, что двустороннее и многостороннее сотрудничество между Азербайджаном и Венгрией успешно развивается в различных направлениях, в том числе в энергетической сфере.
В частности, было выражено удовлетворение долгосрочным сотрудничеством, плодотворными партнерскими отношениями с компанией MOL Group, отмечено успешное участие компании MOL Group в проектах основного экспортного трубопровода Баку-Тбилиси-Джейхан и «Азери-Чираг - глубоководный Гюнешли», а также ценный вклад в развитие нефтегазовой промышленности Азербайджана.
В рамках встречи были рассмотрены существующие и потенциальные возможности сотрудничества между сторонами, состоялся обмен мнениями по другим вопросам, представляющим взаимный интерес.



# Azercosmos и Египетское космическое агенство ведут переговоры по сотрудничеству



- В настоящее время ведутся переговоры между Azercosmos и Египетским космическим агентством.
Об этом сказал министр цифрового развития и транспорта Азербайджана Рашад Набиев на мероприятии, посвященном Дню независимости Египта.
«В настоящее время изучается потенциал сотрудничества в космической отрасли между странами. Ведутся переговоры между Azercosmos и Египетским космическим агентством.
Я считаю, что это существенное дополнение к уже существующим договоренностям с некоторыми египетскими компаниями относительно спутникового потенциала Азербайджана», - сказал министр.
По его словам, на данный момент между странами осуществляется три пассажирских рейса в неделю.
«Мы считаем, что увеличение количества прямых рейсов будет способствовать сотрудничеству между нашими странами в сферах экономики, торговли и туризма», - сказал министр.
Он также отметил важность визита Президента Арабской Республики Египет Абдель Фаттаха Ас-Сиси в Азербайджан в начале года.

# Утверждения Армении о гуманитарной ситуации в Карабахе совершенно беспочвенны



25 июля министр иностранных дел Азербайджана Джейхун Байрамов в рамках рабочего визита в Россию провел двустороннюю встречу с министром иностранных дел РФ Сергеем Лавровым, а затем и трехстороннюю встречу с министром иностранных дел России и министром иностранных дел Армении Араратом Мирзояном, передает Trend со ссылкой на МИД Азербайджана.
На встречах обсуждался процесс нормализации отношений между Азербайджаном и Арменией.
Джейхун Байрамов еще раз довел до сведения позицию Азербайджана относительно сложившейся ситуации в регионе, угроз и противоправных действий со стороны Армении против шагов, предпринимаемых Азербайджаном в направлении установления мира и безопасности в регионе, а также военных провокаций со стороны Армении, в том числе воспрепятствования полету самолетов.
Министр подчеркнул, что утверждения Еревана о гуманитарной ситуации в Карабахе совершенно беспочвенны и являются политическими манипуляциями.
Было подчеркнуто, что меры против случаев злоупотребления Арменией Лачинской дороги в военных целях, вопреки обязательствам, закрепленным в Трехстороннем заявлении от 10 ноября 2020 года, а также незаконной транспортировки природных ресурсов Азербайджана являются суверенным правом Азербайджана.
В то же время было доведено до сведения, что установление с этой целью Азербайджаном пропускного пункта является необходимой мерой. Министр подчеркнул, что прекращение попыток воспрепятствовать мерам по реинтеграции армян, проживающих на суверенных территориях Азербайджана, безоговорочное подтверждение Арменией суверенитета и территориальной целостности Азербайджана словом и делом, а также вывод армянских вооруженных сил, которые до сих пор вопреки обязательствам находятся на территории Азербайджана, являются самыми необходимыми условиями для обеспечения мира в регионе.

# В настоящее время электросети восстанавливаются в 22 селах



В рамках работ по реконструкции электросети в 40 селах, включенных в План действий ОАО «Азеришыг» по Азербайджану, работы уже завершены в 18 селах, в 22 селах работы продолжаются.
Об этом заявил директор технического департамента ОАО «Азеришыг» Вюсал Ганбаров на встрече с представителями СМИ в Гадруте, говоря о работе, проделанной ведомством за 6 месяцев текущего года.
Он проинформировал, что в шестом месяце этого года в Агдаме были сданы в эксплуатацию две 35-киловольтные подстанции, а всего по стране проложено – 35-киловольтных кабельных линий протяженностью 66,2 км, 10-киловольтных кабельных линий протяженностью 147 км и 0,4-киловольтных кабельных линий протяженностью 93,3 км.
Согласно соответствующим поручениям Президента Ильхама Алиева ОАО «Азеришыг» с 2022 года приступило к реализации нового проекта в регионах Азербайджана. В течение этого года будет полностью реконструирована электросеть более 100 сел и поселков в различных регионах страны.

# “Армения всегда признавала Карабах в составе Азербайджана”

Все страны всегда считали Карабах частью Азербайджана. Армения также всегда признавала территориальную целостность Азербайджана, но об этом не всегда заявлялось, сказал премьер-министр Армении Никол Пашинян на пресс-конференции во вторник.
«Другой вопрос, что мы осознавали эту данность или нет.
Наша позиция была такова – не важно, что весь мир говорит о другом, мы должны сделать по-другому. Возможно, на каком-то этапе я тоже так действовал, но в конце концов, реальность ставит нас в конкретную ситуацию», - сказал Пашинян.

# Qlobal birjalarda son vəziyyət



Ötən həftənin çərşənbə günü Avrozonada və İngiltərədə proqnozların altında açıqlanan inflyasiya göstəriciləri fonunda avro və funt-sterling dollar qarşısında müvafiq olaraq 1.11$ və 1.28$ hədlərinə ucuzlaşdı.
Bu həftə mərkəzi bankların iclasları ilə əlamətdar olacaq. Belə ki, Federal Ehtiyatlar Sistemi və Avropa Mərkəzi Bankı (AMB) faiz dərəcələrini artırmağa hazırlaşarkən, Yaponiya Mərkəzi Bankının (BoJ) heç bir dəyişiklik etməyəcəyi proqnozlaşdırılır. ABŞ fond bazarlarında ralli dönüş nöqtəsi ilə üz-üzədir. Neft tədarük proqnozu ilə bağlı narahatlıqlar fonunda öz qazanclarını artırmağa hazır görünür.
Çərşənbə günü FED-in faizləri artıracağına əmin olan investorların diqqəti bunun sərtləşdirmə dövründə son faiz artımı olub-olmayacağına yönələcək.
Qeyd edək ki, FED yüksələn inflyasiya ilə mübarizə aparmaq üçün son 40 ildən çox müddətdə ən sürətli sərtləşdirmə dövrünə başladığı 2022-ci ilin mart ayından etibarən uçot dərəcələrini 500 baza bəndi artırdıqdan sonra ötən ay faiz artımını dayandırmışdı.
Bazar iştirakçıları həmçinin Amerikada, Avrozonada, İngiltərədə sənaye və xidmət sektorlarında Biznes Aktivliyi İndekslərini, Almaniyada inflyasiyaya, Amerikada daşınmaz əmlak və tikinti sektorlarına dair göstəriciləri, eləcə də şəxsi xəclərə dair statistik rəqəmləri yaxından izləyəcəklər.
Ötən həftəni 101.0 bənd səviyyəsində başa vuran DXY-da “ayılar” qiymətləri 100 bənd səviyyəsindəki psixoloji dəstək həddinin altına qaytara və orada saxlaya bilsələr, eniş tendensiyası davam edə bilər.

# Dünya ərzaq böhranı ilə üz-üzədir



Bloomberg yazır ki, dünya ərzaq böhranı ilə üz-üzədir. Müəlliflər planetdə ərzaq təhlükəsizliyi ilə bağlı vəziyyətin kəskinləşməsinin əsas amilləri kimi Rusiyanın taxıl sazişindən çıxmasını, Avropa və Amerikada görünməmiş istilər, habelə Hindistanın düyü ixracına tətbiq etdiyi məhdudiyyətləri qeyd edirlər.
Temperaturun yüksəlməsi meyvə istehsalı və süd məhsulları ilə bağlı problemlər yaradır. Belə ki, cənub Avropa regionunda istilər inəklərin südveriminə, pomidor və dənli bitkilərin məhsuldarlığına mənfi təsir göstərir. Asiyada hava şəraitinin (El Nino) düyü ilə bağlı yaratdığı problemlər var, ərzaq inflyasiyası yüksəlir.
USDA bu il buğda istehsalının 16 faiz, digər yaz sortlarının isə bir faiz azalacağını proqnozlaşdırır. Eyni zamanda, nəqliyyat problemləri ərzaq təhlükəsizliyini kəskinləşdirə bilər.
Avropada quraqlıq İtaliya, İspaniya və Portuqaliyada taxıl istehsalının ötən illə müqayisədə 60 faiz aşağı düşməsinə səbəb olub və ola bilsin ki, Avropa İttifaqında son 15 ildə ən pis taxıl məhsulu əldə edilib.
Dünyanın ən böyük düyü ixracatçısı olan Hindistan, daxili qiymətləri aşağı saxlamaq üçün bu həftə dünya əhalisinin təxminən yarısı üçün əsas qida olan əmtəənin ixracını məhdudlaşdırıb. Rusiya Ukrayna taxılının Qara dənizdən təhlükəsiz keçməsinə icazə verən sazişdən çıxıb.
Bütün bunlar yenə də ərzaq təhlükəsizliyi və qiymətlərlə bağlı narahatlıqları artırır. Supermarket rəflərində qiymətlərin daha da artması riski var.

# "Koç Holding" "Yapı ve Kredi Bankası" səhmlərini satacaq

"Koç Holding" portfelindəki "Yapı ve Kredi Bankası" səhmlərindən 575 milyon ədədini satacağını açıqlayıb. Bu səhmlər bankın nizamnamə kapitalının 6,81%-nə bərabərdir.
Marja.az "Koç Holding"in açıqlamasına istinadən xəbər verir ki, satışdan sonra da qrup bankın əsas səhmdarı olmağa davam edəcək.
Satışdan sonra "Koç Holding"in "Yapı Kredi"dəki birbaşa payı 27,02%-dən 20,22%-ə enəcək.
Həmçinin "Koç Holding" törəmə şirkəti "Koç Financial Services" vasitəsilə "Yapı Kredi"nin 40,95%-nə sahibdir.
Beləliklə, satışdan sonra "Koç Holding"in "Yapı Kredi"dəki payı 61,17% olacaq.
Bankın birjada ticarət olunan hissəsi isə 38,83%-ə yüksələcək.
1944-cü ildə qurulan "Yapı ve Kredi Bankası" 1980-ci ildə "Çukurova Holding"ə keçib. 2001-ci il böhranında "Çukurova" Qrupu çətinliklər yaşadıqdan sonra bank 2006-cı ildə "Koç Holding" və İtalyan "UniCredit" tərəfindən 50 faiz ortaqlıq olaraq qurulan "Koç Financial Services"ə satılıb. Ortaqlıq 2020-ci ildə başa çatıb. İtalyanlar səhmlərinin bir hissəsini satıblar.
2021-ci ildə "Koç Holding" "UniCredit"in səhmlərinin 18 faizini 300 milyon avroya satın alaraq bankın əsas səhmdarı olub. "Unicredit" səhmlərinin qalan 2%-ni də birjada sataraq Türkiyə bazarını tamamilə tərk edib.

# Rusiyada rekord məhsul gözlənilir



Rusiya prezidenti Vladimir Putin “Rusiya və Afrika: Sülh, tərəqqi və uğurlu gələcək naminə səylərin birləşdirilməsi” məqaləsində qeyd edib ki, Rusiya Federasiyası Ukrayna taxılını həm kommersiya, həm də pulsuz əsaslarla əvəz etmək iqtidarındadır.
Bu il yenə Rusiyada rekord məhsul gözlənilir.
Müvafiq məqalə Kremlin saytında dərc olunub.
"Bütün bu faktları nəzərə alsaq, humanitar məqsədini doğrultmayan "taxıl müqaviləsi"nin davam etdirilməsi mənasını itirib.
Biz "sövdələşmənin" daha da uzadılmasına etiraz etdik - iyulun 18-dən onun icrası başa çatıb.
Mən əmin etmək istəyirəm ki, ölkəmiz Ukrayna taxılını həm kommersiya, həm də pulsuz əvəz edə bilər. Xüsusən də bu il rekord məhsul istehsalı gözləyirik", - məqalədə bildirilir.
Rusiya prezidenti Vladimir Putin Qara dəniz taxıl sazişinin mənasını itirdiyini və buna görə də Rusiyanın bu sazişdən çıxdığını bildirib.
Kremlin saytında yer alan məqaləyə görə, Putin deyib ki, “insani məqsədini yerinə yetirməyən” taxıl müqaviləsinin davam etdirilməsi mənasını itirib.
Müharibəyə baxmayaraq, Moskva bir il əvvəl qlobal ərzaq böhranını yüngülləşdirmək üçün Ukraynaya Qara dəniz limanlarından taxıl ixrac etməyə icazə verən sazişdən ötən həftə çıxıb.
Putin Sankt-Peterburqda keçiriləcək Rusiya-Afrika sammitindən əvvəl verdiyi açıqlamada, "Əmin olun ki, ölkəmiz Ukrayna taxılını əvəz edə bilər. Biz bu il rekord məhsul gözləyirik", - deyib.
Qara dəniz taxıl sazişinin müddəti iyulun 18-də başa çatıb. Rusiya sazişin uzadılmasına etiraz edib.

# Dünyanın ən zəngin adamı dəyişdi

“Tesla”nın qurucusu və “Twitter”in sahibi İlon Mask “Forbes” jurnalının dünyanın ən varlı adamları reytinqində birinci yerə yüksəlib.
Məlumata görə, Maskın sərvəti 4,2 milyard dollar artıb və hazırda 240,7 milyard dollar təşkil edir.
Bu yaxınlaradək siyahıda birinci olan LVMH (Louis Vuitton Moet Hennessy) şirkətlər qrupunun prezidenti Bernard Arno isə hazırda ikinci yerə düşüb. Onun toplam sərvəti 234,6 milyard dollar dəyərində qiymətləndirilir.
İlk beşliyi “Amazon” korporasiyasının qurucusu Ceff Bezos, “Oracle” şirkətinin təsisçilərindən biri, amerikalı Larri Ellison, “Microsoft”un banisi Bill Qeyts tutur.



Qeyd edək ki, “Meta” korporasiyasının rəhbəri Mark Zukerberq yeni siyahıda səkkizincidir.

# Aİ Ukraynaya €1.5 mlrd. həcmində daha bir tranş ayırıb

Avropa Komissiyasının sədri Ursula fon der Leyen bildirib ki, Avropa İttifaqı (Aİ) Ukraynaya dəstək və infrastrukturun təmiri üçün 1.5 milyard avro həcmində daha bir tranş ayırıb. Banker.az bu barədə



Kommersant-a istinadən xəbər verir.
“Bu gün biz Ukraynaya infrastrukturun təmirinə kömək etmək üçün daha 1.5 milyard avro ödədik”, – deyə Leyen “Twitter”də yazıb.

# Son on ildə dünyada 82 milyon hektar meşə yanıb

2013-2023 illər ərzində dünyada 82 milyon hektar meşə sahəsi yanıb, 2016-cı ildə 9,63 milyon hektar sahənin yanması ilə ən böyük meşə itkisi qeydə alınıb.
AZƏRTAC xəbər verir ki, bu rəqəmlər planetimizdə meşə yanğınları ilə bağlı məlumatları toplayan “Global Forest Watch” internet saytında yer alıb. Saytın məlumatına görə, son 10 ilin ən böyük yanğınları Avstraliya, Rusiya, Kanada və ABŞ-da baş verib. Hazırda Kanada, Yunanıstan, Əlcəzair və İtaliyada meşə yanğınları tüğyan etməkdədir.
Dünya üzrə son on illiyin ən böyük meşə yanğını Avstraliyada olub. Ölkənin bir sıra əyalətlərində 2019-cu ilin payızında başlayan və təxminən altı ay davam edən genişmiqyaslı meşə yanğınları nəticəsində 479 nəfər həyatını itirib. Avstraliya tarixinə “Qara yay” kimi yazılan bu yanğınlarda 24 milyon hektardan çox ərazi və 3500 ev yanıb. Rusiyada 2021-ci ildə 18,16 milyon hektardan çox, ABŞ-da 2020-ci ildə 1,7 milyon hektar meşə yanaraq məhv olub. Kanadada bu ilin may ayında başlayan və hələ də davam edən yanğınlar isə 10 milyon hektardan çox meşə sahəsinə yayılıb.



# Buğda qiymətləri son 5 ayın maksimumunu yeniləyib



Qara dəniz regionundan tədarükün azalması qorxusu fonunda buğdanın qiyməti fevralın ortalarından bəri maksimum səviyyəyə çatıb.
Çikaqo buğda fyuçersləri təxminən 2.6% artaraq 7.7725 dollar/buşel olub.
Banker.az bu barədə xarici mediaya istinadən xəbər verir.
Rusiyanın taxıl sazişindən çıxması ilə əlaqədar son vaxtlar buğda bahalaşır. “Financial Times” yazır ki, qiymət artımı Odessa vilayətində obyektlərə hücumlar barədə xəbərlərdən sonra güclənib. Qlobal buğda tədarükünün təxminən 30%-i Rusiya və Ukraynanın payına düşür.
“Trading Economics” qeyd edir ki, eyni zamanda ABŞ-ın bir sıra əsas kənd təsərrüfatı regionlarında quru hava ölkədə taxıl məhsulu ilə bağlı proqnozların pisləşməsinə səbəb olub.

## Qarabağın görkəmli simaları

# Əliyar Əliyev

***Azərbaycanın Milli Qəhrəmanı, Qarabağ müharibəsi şəhidi Əliyar Yusif oğlu Əliyev 1957-ci il dekabrın 14-də Qubadlı rayonunun Qazyan kəndində anadan olub. 1979-cu ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu fərqlənmə diplomu ilə bitirərək, bir müddət Qubadlı rayonunun Dondarlı kənd orta məktəbində idman müəllimi işləyib.***

Hərbi xidməti başa vurduqdan sonra Saransk Dövlət Universiteti onu idman üzrə tanınmış mütəxəssis kimi müəllim işləməyə dəvət edir və Əliyar Əliyev həmin universitetdə iki il müəllim işləyir. Atasının ölümü ilə əlaqədar o, Qazyana qayıdır, qəsəbə orta məktəbində müəllim, "Məhsul" Kənd Könüllü İdman Cəmiyyətində rayon şöbəsinin məşqçisi vəzifəsində çalışır. 1985-ci ildən isə Könüllü Bədən Tərbiyəsi və İdman Cəmiyyəti rayon Şurasının sədri seçilib.

***Qarabağ müharibəsi başlayanda Əliyar Əliyev könüllü olaraq Azərbaycan Silahlı Qüvvələrinin sırasına qoşulur. Müharibədə özünü təkcə döyüşçü kimi yox, həm də hərbi işin təşkilatçısı kimi göstərməyə başlayır. Əvvəlcə taborun kəşfiyyat bölməsinin komandiri, sonra tabor komandirinin təchizat üzrə müavini təyin edilir.***

1988-ci ilin fevral ayında Xankəndidəki ilk erməni mitinqlərindən sonra Ermənistandan azərbaycanlıların deportasiyası başlandı və ilk qaçqın dalğası Qubadlıdan keçdi. Sisiyandan, Qafandan, Gorusdan qovulan, döyülüb təhqir edilən azərbaycanlıların bir qismini qubadlılılar qəbul etdilər. Dağlıq Qarabağla Ermənistan arasında yerləşən Qubadlının strateji əhəmiyyətini başa düşən erməni təcavüzkarları burada terror-təxribatlar törətməyə çalışırdılar. Məhz elə o illərdə Qubadlıda xalq hərəkatının başçısı, demokratik qüvvələrin rəhbəri kimi tanınan Əliyar Əliyev könüllülərdən ibarət dəst təşkil edir. Onun təşkil etdiyi tabor camaat arasında "Pəhləvanlar taboru" kimi da tanınırdı. Çünki könüllülərin əksəriyyəti onun rəhbərlik etdiyi Könüllü Bədən Tərbiyəsi və İdman Cəmiyyətinin üzvlərindən ibarət idi. Lakin o, təvazökarlıq göstərib komandir olmur. 1992-ci ildə Əliyar Əliyev taborun kəşfiyyat bölməsinin komandiri təyin edilir. Sonradan isə taborun rəhbərliyi ona həvalə olunur.

O, Başarat, Susuz dağ, Suarası mövqelərini ələ keçirərkən xüsusilə fərqlənib, 1992-ci il sentyabrın 30-da Laçın rayonu istiqamətində döyüşə rəhbərlik edib.

1991-ci ilin may ayında Qubadlının Yuxarı Cibikli kəndi, 1992-ci ilin oktyabr ayının 12-də isə bu rayonun Topağac-Başarat yüksəkliyi uğrunda gedən döyüşlərdə də onun rəhbərlik etdiyi alay düşməni ağır itkilərə məruz qoymuşdu. Əliyar Əliyevin rəhbərlik etdiyi alayın topçuları Xocalı soyqırımından bir neçə gün sonra yuxarıların əmri olmadan Gorusun altını üstünə çevirmiş, Moskva və İrəvan KİV-ləri bu hücum zamanı 336 nəfərin öldürüldüyünü yazmışdı. Bununla bağlı Ermənistanda üç gün matəm elan edilmişdi, İrəvanda keçirilən mitinqlərdə Əliyar Əliyevə və onun 3 döyüşçüsünə ölüm hökmü çıxarılmışdı.

1992-ci ilin aprel ayının 16-da "Qara bəbir" ləqəbli Suriya ermənisi Karlenin başçılığı ilə xaricdə xüsusi hazırlıq keçmiş 50 nəfərlik diversiya qrupu Laləzar körpüsünü partladıb Qubadlının sərhəd kəndlərinin rayon mərkəzi ilə əlaqəsini kəsmək, strateji yüksəklikləri ələ keçirmək üçün hücuma keçmişdi. ***Kəşfiyyat məlumatları nəticəsində bundan xəbər tutan və onların yolunu gözləyən Əliyar Əliyev və döyüşçüləri onları mühasirəyə alaraq dəstəbaşıları da daxil, 11 düşmən əsgərini məhv etmiş, həmin meyitləri azərbaycanlı əsirlərə dəyişmişdilər.***

1992-ci ilin iyun ayının 24-də Qubadlı rayon mərkəzini bombalamağa uçan üç vertolyotu vurub salan da Əliyar Əliyevin döyüşçüləri olmuşdu. ***1992-ci ilin avqust ayında həyata keçirilən "Şurnuxu" əməliyyatında iştirak etmişdir. Qarabağ müharibəsi qazisi Sadiq Paşayevin sözlərinə görə, Azərbaycan əsgərləri iki rayonun arasındakı yolu kəsib, əlaqəyə girmələrinə mane olurduq. Orada ermənilərin 100 nəfərdən çox canlı qüvvəsi toplanmışdı.*** Azərbaycan əsgərləri iki qrup idi – bir bölük və təxminən 40-45 nəfər ibarət olan bir tağım. Əməliyyat bir gün çəkdi və ermənilər 80-dən çox canlı qüvvə və bir neçə texnika itirdi. Gorusun Şurnuxu kəndindəki postu darmadağın etmiş Əliyar Əliyev və döyüşçüləri 20 rus və erməni silahlısını canlı olaraq ələ keçirmişdi. Onlar işğalın son günlərinədək Qafan-Gorus yolunu nəzarətdə saxlamağı da bacarmışdılar. Azərbaycan qüvvələrində



bir-iki yüngül yaralı var idi və itki verməmişdi.

Əliyar Əliyev 1992-ci ilin payızında 40 könüllü döyüşçü ilə birlikdə işğal altındakı Laçının 40-a qədər kəndini 4 gün ərzində ermənilərdən azad etdi.

Əliyar Əliyevin son döyüşü 1992-ci il oktyabrın 3-də Laçının iki kilometrliyində olub. "Tikanlı zəmi" yüksəkliyi uğrunda döyüşdə tabor komandiri Əliyar Əliyev və onun sürücüsü Əlisadət Ağayev qəhrəmancasına həlak olublar. O, Qubadlı rayonunun Qəzyan kəndində dəfn olunub. Həmin döyüşlərdə iştirak etmiş, I taborun tank əleyhinə taqım komandiri, baş leytenant, II qrup Qarabağ müharibəsi veteranı Füzuli Həsənov qeyd edir:

***"Əliyarın ölümü ilə bütün Qubadlı kədərə büründü, camaat ona 40 gün yas saxladı. Təbii ki, bu camaatın ona məhəbbətindən irəli gəlirdi. Çünki o, qubadlıların dirəyi, dayağı idi… Hamı onunla fəxr edirdi. Həmişə deyirdilər ki, Əliyar kimi oğlu olan oba basılmaz. Ölümünün qırxıncı günü rayon mərkəzində onun abidəsinin açılışı oldu".***

Əliyar Əliyev Yunan-Roma güləşi üzrə dəfələrlə respublika, ümumittifaq və beynəlxalq yarışların qalibi olub. Əliyarın Əliyev rəhbərliyi ilə yetişmiş 8 nəfər respublika və SSRİ çempionu olmuş, 10-dan çox idman ustası, beynəlxalq turnirlərin qalibləri, Heydər Məmmədəliyev isə güləş üzrə dünya çempionu olmuş və 2004 Yay Olimpiya Oyunlarında gümüş medal qazanmışdır. Bakının Nərimanov rayonundakı küçələrdən biri Əliyar Əliyevin adını daşıyır, orada qəhrəmanın büstü də ucalır və xatirə lövhəsi qoyulmuşdur. ***Masazırda onun adına məktəb, Sumqayıtda və Binəqədidə isə "Əliyar" adlı bulaqlar var. Sumqayıt şəhərində idman klubu və yaratdığı tabor onun adını daşıyır. Qubadlı rayonunda abidəsi qoyulub.***

2016-cı ildə Nizami Abbas Əliyar Əliyev haqqında "**Pəhləvan komandir**" sənədli filmini çəkmişdir.

# Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin və Mərkəzi Gömrük Hospitalının həkimlərinin həmmüəllif olduqları məqalə nüfuzlu beynəlxalq jurnallarda dərc olunub

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini, t.ü.f.d., dosent İsmayıl Əfəndiyev, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin mütəxəssisi Azad Əhmədov və Mərkəzi Gömrük Hospitalının həkim-infeksionisti Mədinə Abdullayevanın digər aparıcı mütəxəssislərlə həmmüəllif olduğu məqalə Ukraynanın "The Journal of Neuroscience of B.M.Mankovskyi" ("B.M.Mankovski adına Nevrologiya jurnalı")







və Tayvanın "International Journal of Clinical Medicine and Bioengineering" ("Beynəlxalq Klinik Tibb və Biomühəndislik jurnalı") adlı nüfuzlu juranallarında dərc olunub.

Hər iki jurnalda yer almış məqalə COVİD-19 pandemiyası dövründə xəstələrin qan nümunələrinin cins və yaş xüsusiyyətlərinə həsr olunub.

Məqalənin adı "COVİD-19" xəstələrinin xəstəxanaya yerləşdirilməsi zamanı qan nümunələrinin cins və yaş xüsusiyyətləri"dir.

Araşdırmanın məqsədi COVID-19-a yoluxmuş və xəstəxanaya yerləşdirilmiş insanların xəstəliyin erkən mərhələsində qan profilini araşdırmaqdır. COVID-19 pandemiyası dövründə xəstələrin müayinəsi üçün etibarlı laboratoriya məlumatlarının olması çox önəmlidir. Ona görə də lazımi məlumatları əldə etmək üçün COVID-19 olan 332 xəstənin hemoqrammalarının retrospektiv təhlilindən istifadə edilmişdir. COVID-19 xəstələrinin qan nümunələrində ən tipik dəyişiklik limfositlərin və eozinofillərin mütləq sayının azalmasıdır ki, bu, daha çox ağır xəstələrdə müşahidə olunur. Qan nümunələrinin kliniki dəyəri xəstələrin cinsindən və yaşından asılı olaraq əhəmiyyətli dərəcədə dəyişir ki, bu da diaqnoz və xəstəliyin gedişatının qiymətləndirilməsi üçün çox vacibdir. Məhz bu parametrlərdən istifadə olunaraq, xəstələrin müalicəsi təyin edilməlidir.

**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi Dilarə Zamanova**

# "TikTok" mətn postlarının yeni formatını təqdim edir

"TikTok" müəllifləri və platforma istifadəçilərini geniş çeşiddə yenilikçi və ruhlandırıcı yaradıcı alətlərlə təmin etməyə sadiqdir. Bu həftə "TikTok" Azərbaycanda və bütün dünyada mətn postlarını istifadəyə verib ki, bu da istifadəçilərin ifadəsinin sərhədlərini genişləndirəcək yeni formatdır. Mətn postlar həmfikir insanlarla fikir mübadiləsi aparmaq üçün əlavə fürsətdir və "TikTok" icmasının artıq həm videolarında, həm də video başlıqlarında və şərhlərində fəal şəkildə nümayiş etdirdiyi yaradıcı yanaşmadır.

**Yaradıcılıq üçün yeni format**

"TikTok" müəllifləri qısa videolardan tutmuş fotoşəkillərə, canlı yayımlardan tutmuş "hekayələrə" qədər məzmun yaratmaq üçün geniş çeşidli formatlara, eləcə də "Duet", "Birləşmə" və digər funksiyalara çıxış əldə edirlər. İndi mətn paylaşımı sayəsində istifadəçilər öz fikirlərini, hekayələrini, şeirlərini və digər mətn məzmunlarını "TikTok"da paylaşa bilərlər.

**Mətn məzmunu yaratmaq daha asan oldu**

İndi tətbiqdə kameranı açarkən istifadəçiyə üç seçim verilir: video, foto və mətn yaratmaq. Mətni seçməklə istifadəçi mətn postunun yaradılması səhifəsinə yönləndiriləcək. Postdan əvvəl istifadəçi onu dinamik və interaktiv edə, məsələn, mətnə səs əlavə etmək, geolokasiya, şərhləri və ya duet funksiyasını aktivləşdirə bilər.

**Faydalı funksiyalar**

Mətn postlarında istifadəçiyə məzmununu vurğulamağa imkan verən bir sıra xüsusiyyətlər təqdim olunur:

*- Mövzuya uyğun stiker seçmək posta xüsusi zövq qatacaq;*

*- Digər istifadəçilərin hesablarını qeyd etmək və cari mövzular və tendensiyalar üzrə hashtaglar əlavə etmək imkanı;*

*- Lentdə mətni fərqləndirmək üçün fon rənginin seçilməsi;*

*- Oxucuya mətni daha dərindən hiss etməyə və ondan zövq almağa kömək edəcək səslərin/musiqilərin əlavə edilməsi;*

Video və ya foto məzmunda olduğu kimi, istifadəçi öz mətnlərini qaralamalara əlavə edə və sonra redaktə etmək üçün saxlaya və ya tamamilə silə bilər.




**Cari ilin ilk 6 ayı ərzində Azəri Light və Brent markalı neftin orta satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert Maqsud Quliyev**

# "Mobil notariat"da çətinliklər yaranıb

Ədliyyə Nazirliyinin "Mobil notariat" tətbiqi ilə ödənişlərin edilməsində çətinliklər yaranıb.

Qurum bəyan edib ki, problem "ASAN Ödəniş" sistemində aparılan optimallaşdırma işləri ilə bağlıdır.

Xatırladaq ki, həm "Appstore"-dan, həm də "Google Play"dan mobil cihazlara ödənişsiz yüklənən bu proqram təminatı vasitəsilə şəxsin iştirakçısı olduğu bütün notariat əməliyyatları ilə bağlı sənədlərin elektron versiyasının vahid mənbədə mobil telefonda saxlanılması, onların qüvvədən düşməsi barədə məlumatın dərhal alınması, habelə həmin sənədlərdən istifadə etməsi mümkündür. Həmçinin, "Mobil notariat" vasitəsilə vətəndaşlar nəqliyyat vasitələrinə dair etibarnamələri, vəkilə verilən etibarnamələri, sosial etibarnamələri, banklarda təmsilçilik ilə bağlı etibarnamələri, eləcə də yetkinlik yaşına çatmamış şəxslərin ölkə ərazisini tərk etməsi üçün valideynləri tərəfindən yazılan razılıq və etibarnamələrə xitam verilməsinə dair ərizələri elektron qaydada videoyazı vasitəsilə həftənin bütün günləri 24 saat ərzində əldə edə bilərlər.

"Mobil notariat" tətbiqi vasitəsilə notariat sənədlərinin həqiqiliyini onun üzərində yerləşdirilmiş QR-kod və ya şəxsin fərdi identifikasiya nömrəsi (FİN) və sənəd üzərində yerləşdirilmiş identifikator (barkod) əsasında yoxlamaq mümkündür.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500